www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet  2  fevral  2018-ci il   Cümə № 25  (6914)  Qiyməti  60 qəpik

**Xəbər**

## Milli Məclis tribunasından amnistiya təşəbbüsü

yazısı səh.4-də

# KREML QAFQAZI YENİDƏN QARIŞDIRIR - SEPARATİZMƏ DƏSTƏK

Rusiya Gürcüstan ərazilərinin işğalını rəsmiləşdirmək yönündə daha bir addım atdı - Bakıya da ismarış?

**Tiflisin reaksiyası gecikmədi:** "Bu, fitnəkar hərəkətlər..."




yazısı səh.8-də

## Fazil Məmmədovun talançı komandasının sonu yaxınlaşır - bacısı oğlu işdən qovuldu

Vergilər Nazirliyində "paket" sistemi ləğv olunur; vergi əməkdaşlarının sahibkarları himayə etməsi yasaqlanır

yazısı səh.7-də

**Gündəm**

### Hakimiyyət seçkiyə İlham Əliyevlə gedir - namizəd müəmmasına son



YAP-ın icra katibinin dili ilə cəmiyyətə və dünyaya mesaj verildi

yazısı səh.5-də

### Deputatdan "qara siyahı"dakı azərbaycanlı oliqarxlara çağırış

yazısı səh.10-da

### Azərbaycanın avtoritar ölkələr siyahısına salınmasına sərt təpki

yazısı səh.3-də

### Gürcüstanda benzin ucuzlaşdı, bəs niyə bizdə də...

yazısı səh.7-də

### Əfvlə bağlı siyahı dartışmaları və ittihamlar başladı

yazısı səh.3-də

### İki süpergüc vuruşur: necə edək ki, "sendviç" olmayaq?

yazısı səh.5-də

### Dövlətin Beynəlxalq Bankdakı payını xarici müştəri alır

yazısı səh.13-də

### Prezidentliyə namizəd bolluğu yaxşıdır, yoxsa...

yazısı səh.9-da

### Bayıl sakinləri 1 həftədir didərgindir - sürüşmə zonasından son xəbərlər

yazısı səh.11-də

### Ziya Məmmədovun müşaviri böyük pulları kimə verib - sensasion iddialar

yazısı səh.13-də

### Bağça müəllimləri məcburi tibbi müayinədən keçəcək

yazısı səh.14-də

### Ev dustağı olan xanım general bəraət istəyir

yazısı səh.13-də



### Akademik Ziya Bünyadovun mübhəm ölüm işi - cinayət dosyesi

yazısı səh.6-da



### Rəsul Quliyevin "Elçibəy saxtakarlıqla prezident seçilib" iddiasına sərt reaksiyalar

yazısı səh.9-da



### Tramp Azərbaycan sərhədinə "bomba" atdı

yazısı səh.12-də

YENİ MÜSAVAT
N 25 (6914) 2 fevral 2018



## Prezident: “Azərbaycanla Türkiyə daim bir-birini dəstəkləyir”

**Prezident İlham Əliyev Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. APA-nın məlumatına görə, ölkələrimizin sosial müdafiə sahəsində iş birliyinin razılıq doğurduğunu deyən prezident İlham Əliyev bu sahədə təcrübə mübadiləsinin, birgə proqramların həyata keçirilməsinin zəruriliyini qeyd edib.**

Ümumilikdə Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin çox uğurla inkişaf etdiyini vurğulayan dövlət başçısı ölkələrimizin daim bir-birinin yanında olduğunu və bir-birini dəstəklədiyini deyib, münasibətlərimizin dünya miqyasında nümunəvi xarakter daşıdığını məmnunluqla qeyd edib. Prezident İlham Əliyev Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əlaqələrimizin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Xanım Jülide Sarıeroğlu isə bu vəzifədə fəaliyyətə başladıqdan sonra ilk səfərini qardaş Azərbaycana etməsindən məmnunluğunu ifadə edib. Nazir Türkiyə ilə Azərbaycanın daim bir-birinin yanında olmasını və ölkələrimizin bütün sahələrdə uğurlu əməkdaşlıq həyata keçirdiklərini vurğulayaraq sosial müdafiə sahəsində də əlaqələrimizin dərinləşdirilməsinin vacibliyini qeyd edib

## İlham Əliyevin Türkmənistana səfəri hazırlanır

**İlham Əliyevin Türkmənistana səfəri planlaşdırılır. APA-nın xəbərinə görə, bu barədə Türkmənistanın Dövlət Agentliyi məlumat yayıb. Bildirilir ki, Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun başçılıq etdiyi nümayəndə heyətinin Türkmənistana səfərinin məqsədi, həmçinin, Azərbaycan prezidenti İlham Əliyevin bu ölkəyə səfərinə hazırlıq məsələsini müzakirə etməkdir.**

Qeyd olunur ki, ötən ilin avqustunda Türkmənistan prezidenti Qurbanqulu Berdimuhammedov Azərbaycana səfər edib və nümayəndə heyəti Türkmənistanda olarkən həmin səfər zamanı əldə edilmiş razılaşmaların praktik olaraq həyata keçirilməsi müzakirə olunub.

## Bir neçə yerdə yeni sürüşmə sahələri yaranıb

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) sürüşmə sahələrində vəziyyəti açıqlayıb. ETSN-in Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov APA-ya deyib ki, “Teleqüllə” sürüşmə sahəsinin torpaq qatında eni görünən dərinliyi 5-6, uzunluğu 60-70 metr olan çatlar yaranıb, ay ərzində prosesin dinamikasında nisbi aktivlik baş verib.**

Onun sözlərinə görə, Zığ sürüşmə sahəsində atmosfer yağıntıları və texnogen amillərin təsirindən nisbi aktivlik müşahidə edilib: “Masazır qəsəbəsində ”Zəli gölü" adlanan ərazidə və Nübar qəsəbəsində atmosfer yağıntılarının və texnogen amillərin təsirindən sürüşmə - çökmə sahələrində aktivlik qeydə alınıb".

Astarada Kijəbə və Miki sürüşmə sahələrinin aktivləşdiyini bildirən ekspedisiya rəisi vurğulayıb ki, Lənkəran-Lerik yolunun 17-19 km-liyi sürüşmə sahəsində atmosfer çöküntülərinin təsirindən yol boyu yamacda bir neçə yerdə yeni uçqun hadisəsi baş verib və bir neçə yerdə yeni sürüşmə sahəsi əmələ gəlib. Masallı-Yardımlı yolunun 13-15, 7-16-24 -26 kilometrliklərində sürüşmə sahəsində aktivləşmə müşahidə edilib.

Ekspedisiya rəisi qeyd edib ki, Xızı - Altıağac avtomobil yolunun 1-ci km-də, yolun sağ və sol hissələrində bir neçə yerdə çökmə və oturma prosesi qeydə alınıb. Quba - Xınalıq avtomobil yolunun 37-46-cı kilometrliyində sürüşmə aktivləşib. Bundan başqa, Şamaxı şəhəri 48-A məhəllɘsi sürüşmə sahəsində çatların ölçülərində artım qeydə alınıb, sürüşmə sahəsində aktivlik müşahidə olunur.

# Bakı Nəqliyyat Agentliyindən alqışlanacaq qərar

## Bakıda jurnalistlərə görə 125 saylı marşrutun hərəkət sxemi dəyişdirilib

**125 nömrəli müntəzəm marşrut xətti üzrə avtobusların hərəkət sxemində dəyişiklik edilib.**

Bu barədə “Report”a Bakı Nəqliyyat Agentliyinin (BNA) sektor müdiri Mais Ağayev məlumat verib.

Məlumata görə, bu marşrut üzrə avtobuslar “Lökbatan” Nəqliyyat Mübadilə Mərkəzinə gedərkən 20-ci sahədəki dairədən geri qayıdaraq yeni salınan yoldan “Bibiheybət yolu”na çıxmaqla (“Jurnalistlər binası”nın qarşısındakı yol) müəyyən edilən xətt üzrə hərəkətinə davam edəcək.




Dəyişiklik nəticəsində “Bibiheybət yolu” ətrafında çoxsaylı yaşayış binalarının sakinlərinin, Bakı Ali Neft Məktəbinin kampusunun müəllim və tələbə heyətinin, eləcə də həmin ərazidə olan iaşə obyektlərindən istifadə edən əhalinin müntəzəm marşrut xətti ilə “28 May” metro stansiyası - “Lökbatan” Nəqliyyat Mübadilə Mərkəzi ilə əlaqələndirilməsi təmin ediləcək.

Məlumat üçün qeyd edək ki, dəyişiklik edilməsi haqqında qərar “Bibiheybət yolu” (“Jurnalistlərin binası”) ətrafında məskunlaşan sakinlərdən Bakı Nəqliyyat Agentliyinə daxil olan çoxsaylı müraciətlər əsasında aparılan təhlillərə uyğun olaraq qəbul edilib. Belə ki, Su İdman Sarayından “Bibiheybət yolu” (“Jurnalistlərin binası”) ilə Bibiheybət məscidinə qədər marşrutun olmaması ərazidə məskunlaşan sakinlərin yaxınlıqdakı dayanacağa piyada gedişində çətinliklər yaradır. Belə ki, 20-ci sahədəki dayanacaqdan “Bibiheybət yolu” ətrafındakı yaşayış binalarına (Jurnalistlərin binası) qədər piyada gediş məsafəsi 840 m təşkil edir.

Qeyd edək ki, 125 nömrəli müntəzəm marşrut xətti üzrə avtobuslar fevralın 3-dən yenilənmiş sxem üzrə hərəkət edəcəklər.

## FTX prezident seçkilərində terakt planlaşdıran İŞİD-çini məhv etdi

**Rusiyanın Nijni Novqorod şəhərində terror törətməyə hazırlaşan İŞİD üzvü zərərsizləşdirilib.**

«RİA Novosti»nin verdiyi xəbərə görə, bu barədə Rusiya Federal Təhlükəsizlik Xidmətindən məlumat verilib.

Bildirilir ki, zərərsizləşdirilən şəxs Rusiyada prezident seçkiləri zamanı terror törətməyi planlaşdırırmış.

Saxlanılan zaman silahlı müqavimət göstərən terrorçu məhv edilib.

Onun üzərində bir neçə partlayıcı qurğu, odlu silah və döyüş sursatları aşkarlanıb.

Faktla bağlı cinayət işi açılıb.



## İtkin düşən alpinistləri xüsusi avadanlıqla axtaracaqlar

**İtkin düşən alpinistlərin axtarışı üçün Azərbaycana xüsusi avadanlıq gətirilib. Bu haqda redaksiyamızı bilgiləndirən mənbə deyib ki, İsveçrədə istehsal olunan avadanlıq dağlıq ərazilərdəki üstü qarla örtülmüş yarğanlarda mobil telefon cihazlarında quraşdırılan sim kartları müəyyən etmək gücündədir. Avadanlıq mobil telefonun işlək vəziyyətdə olub-olmamasından asılı olmayaraq dərin yarğanlara düşən sim kartları müəyyən edə bilir.**

Yəni axtarılan alpinistlərin üzərindəki mobil telefonları aşkar edə biləcək. Həmin avadanlıq orta ölçülü kitab şəklindədir və vertolyota quraşdırılmaqla axtarış aparılmasına imkan verir. Yada salaq ki, ötən il dekabrın 23-də Azərbaycanda Tufandağ ətrafına səfər edən 3 gənc itkin düşüb. Onlar “Gilavar” - hava və ekstrim idman klubunun üzvləri Namin Bünyatzadə, Babur Hüseynov və Fəridə Cəbrayılzadədir. Onlarla əlaqə kəsiləndən sonra alpinistlərin axtarışına başlanıb və hələ ki müsbət nəticə yoxdur. Hazırda Fövqəladə Hallar Nazirliyi Xüsusi Riskli Xilasetmə Xidmətinin dağ-xilasetmə dəstəsi axtarışlara cəlb olunub. Fövqəladə Hallar Nazirliyi axtarışın mürəkkəb relyefi olan yüksək dağ massivində aparıldığını və hava şəraitini nəzərə alaraq, axtarışa hazırlığı və təcrübəsi olmayan şəxslərin qoşulmasını təhlükəli hesab edib. Tufandağda itkin düşən alpinistlərin axtarışına 10 könüllü də qoşulub. Qurumun yaratdığı Əməliyyat Qərargahı itkin düşən gənclərin axtarışının mürəkkəb relyefi olan yüksək dağ massivində aparıldığını açıqlayıb. Tufandağda itkin düşənlərdən biri, Babur Hüseynov Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşıdır.

**E.MƏMMƏDƏLİYEV**
**“Yeni Müsavat”**

## Azərbaycana “quş qripi” təhlükəsi yoxdur

**İran və İraqda “quş qripi”nin geniş yayılmasının Azərbaycana təhlükəsi yoxdur. Bunu “Trend”ə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin mətbuat katibi Yolçu Xanvəli deyib.**

Onun sözlərinə görə, Azərbaycan İrandan diri quş, quş əti, yumurta və digər quş məhsullarının idxalını ötən ilin mart ayından qadağan edib: “İraqdakı ”quş qripi"nə gəldikdə isə Azərbaycan bu ölkədən quş əti və digər məhsullar idxal etmir".

Qeyd edək ki, yayılan məlumatlara görə, İranda ötən ilin martından başlayaraq “quş qripi” ilə əlaqədar 21 milyon quş məhv edilib. Məlumata görə, epidemiya ümumilikdə ölkənin 16 regionunu əhatə edib.

İraqda isə “quş qripi” virusunun bu ilin yanvarından yayıldığı bildirilib. Məlumata görə, burada bir ay ərzində 7,2 mindən çox quş xəstəliyin qurbanı olub.

## Nazir Dövlət Baytarlıq Nəzarəti Xidmətinə rəis təyin etdi

**Kənd Təsərrüfatı Nazirliyi (KTN) yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin (DBNX) rəisi vəzifəsinə təyinat olub.**

APA-nın xəbərinə görə, kənd təsərrüfatı naziri Heydər Əsədovun müvafiq əmri ilə bu vəzifəyə Azər Süleymanov təyin edilib.

DBNX-nin mətbuat katibi Yolçu Xanvəli faktı təsdiqləyib.

Qeyd edək ki, A. Süleymanov 2015-ci ilin sentyabrından DBNX-nin rəisi vəzifəsini icra edirdi.

## Lavrov ATƏT sədri ilə Qarabağı müzakirə etdi

**ATƏT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün birgə aktiv fəaliyyətini davam etdirəcək.**

Virtualaz.org-un məlumatına görə, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov ATƏT sədri kimi Moskvaya gələn İtaliyanın xarici işlər naziri Ancelino Alfano ilə birgə mətbuat konfransında deyib.

Rusiya XİN başçısı ATƏT sədri ilə görüşdə ATƏT məkanındakı münaqişələri müzakirə etdiklərini söyləyib: “Bizim birgə səylərimizlə ATƏT Dnestryanıda, Dağlıq Qarabağda münaqişələrin qarşısını almağa töhfə verməyə, Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması ilə bağlı Cenevrə müzakirələrinə sədrlik etməyə davam edəcək.

ATƏT eləcə də, Balkanlarda işləməyə davam edəcək. Hər şeydən öncə biz ATƏT-in Kosovoda aktiv rol oynamasını görmək istəyirik".

Daha sonra çıxış edən A.Alfano da bildirib ki, rusiyalı həmkarı ilə keçirilən görüşdə ATƏT regionundakı münaqişələri müzakirə ediblər: “ATƏT həlli gecikmiş münaqişələrin həllinə yardım etməyə davam edəcək”.

Rusiyanın regiondakı münaqişələrin nizamlanmasında oynadığı rola toxunan ATƏT sədri vurğulayıb ki, o, həlli gecikmiş münaqişələrin nizamlanmasında çox vacib, böyük rol oynayır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

**Azərbaycanda hər zaman olduğu kimi, indi də əfv öncəsi siyasi məhbuslardan ibarət hazırlanan siyahılar ətrafında narazılıq yaranıb. Belə ki, mart ayında veriləcək əfvlə bağlı İnsan Haqları üzrə Birgə İşçi Qrupu təxmini 30, Siyasi Məhbusları Müdafiə Mərkəzi (SMMM) isə 161 nəfərlik siyasilərdən ibarət siyahı hazırlayıb.**

# Əfvlə bağlı siyahı dartışmaları və ittihamlar başladı

Tərəflər bir-birinin siyahılarını ən sərt şəkildə tənqid edirlər. Hər iki tərəfin də özünəməxsus tutarlı arqumentləri var. İşçi qrupunun üzvləri hesab edirlər ki, SMMM siyahıları şişirtməklə əsl siyasi məhbus olanların azadlığa çıxmalarına ciddi maneələr yaradır. Onlar bildirirlər ki, əfv öncəsi bu tipli siyahıların meydana çıxması təsadüfi deyil. Qurumun təmsilçiləri SMMM-ı siyasi məhbus kateqoriyasına aid olmayan şəxsləri siyahılarına salmaqda ittiham edirlər. SMMM üzvləri isə qarşı tərəfin 30-a yaxın siyahı hazırlamaqla, hökumətin “Azərbaycanda siyasi məhbus yoxdur” fikirlərinə xidmət etdiyini bildirirlər. İşçi qrupu hesab edir ki, jurnalist Əfqan Muxtarlı, AXCP sədrinin müavini Gözəl Bayramlı və digər bunlar kimi siyasi motivlərlə həbs edilən şəxslərin məhkəmələri tam bitmədən siyahılara salınması doğru deyil.

**“Biz - Hüquq Müdafiəçilərinin Monitorinq Qrupu bu siyahının bir qismi ilə razı deyilik. Çünki orda elə insanlar var ki, siyasi məhbus kriteriyasına cavab vermir”. Bu fikirlər İşçi Qrupun üzvü Səidə Qocamanlıya məxsusdur. Onun sözlərinə görə, Siyasi Məhbusları Müdafiə Mərkəzinin 161 nəfərlik siyahısında siyasi məhbus olmayanların adları da yer alıb. Hərçənd hüquq müdafiəçisi ad çəkmir:** “Ad çəkmək istəməzdim. Heç lazım da deyil. Amma beləleri var. Özü də bir deyil, iki deyil. Əfv sərəncamı haqda xəbər çıxan kimi bəziləri özlərini göstərməkdən, hüquq müdafiəçisi kimi cəmiyyətə sırımaqdan ötrü hər bir şeyə gedirlər. Belə olmaz. Bizim təcrübəmiz var. 1994-cü ildən bu işlə məşğuluq. Biz nəzərə alırıq ki, hər bir adın arxasında insan taleyi durur, onların ailəsinin, uşaqlarının taleyi durur. Bu məsələyə incə yanaşmaq lazımdır ki, qarşıdakı məqsədə - onların azadlığa çıxmasına nail ola bilək. Bunun ətrafında səs-küy qaldırmaqla öz miskin məqsədlərini ortaya qoyurlar. Bizim siyahıda 30 nəfərə qədər insanın adı var. Onların azadlığa çıxmasına nail olmaqdan ötrü əlimizdən gələni edirik. Yeni siyahı nə qədər böyük olsa, bir o qədər də onların azadlığa çıxması məhdudlaşır. Bilirsiniz ki, əfv sərəncamı gözlənilir, Demokratik Cümhuriyyətin 100 illiyi ilə bağlı böyük amnistiya da gözlənilir. Ona görə də biz Əfv Komissiyasına öz siyahımızı təqdim etmişik. Çox təəssüflər ki, bəziləri siyasi məhbus siyahılarını hazırlayanda, cəmiyyətə təqdim edəndə bunların hamısının birdən azadlığa çıxması təəssüratı yaradırlar. Orda eləsi var ki, təkrar məhkəməsi tələb edilməlidir. Və ya ömürlük azadlıqdan məhrum edilənlər var, onlar birdən-birə buraxıla bilməzlər.



**Mirvari Qəhrəmanlı:** “Oqtay Gülalıyev hansı məhkəmədə oturub monitorinq aparıb?”



**Əvəz Zeynallı:** “30 nəfər deyirlərsə, onları buraxdırsınlar, bizim siyahı ilə nə işləri var?”

Əvvəlcə onların cəzalarını azaltmaq, sonra işlərinə baxmaq lazımdır. Hər şeyi birdən tələb etmək alınmır”.

SMMM-nın təmsilçisi, hüquq müdafiəçisi Oqtay Gülalıyev İşçi qrupunun siyahısının həqiqətdən tam uzaq olduğunu bildirib.

**İşçi qrupunun üzvlərindən biri olan hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı “Yeni Müsavat”a açıqlamasında bunları dedi:** “Kim deyir ki, Gözəl Bayramlı siyasi məhbus siyahısına salınmayıb? Onunla əlaqədar müzakirələrimiz daim gedir. Əfqan Muxtarlıya gəlincə, onun məhkəməsi tam başa çatıb? Onlar başa düşməlidirlər ki, bir şəxs həbs olunan kimi onu siyasi məhbus elan etmək olmaz. Heç kəs inkar etmir ki, Əfqan Muxtarlının həbsində qanunilik var. Oqtay Gülalıyev elə şəxslərin adlarını çəkməyə başlayıb ki, bu, cəmiyyətdə ciddi narazılıq doğurmağa başlayıb. Onu hər sahədə görmək olur. Belə ondadır ki, elə şəxslər hüquq müdafiəçisi olurlar ki, sonunda bugünkü acı mənzərə yaranır. Sual verirəm ki, Oqtay Gülalıyev hansı məhkəmədə oturub, məhkəmənin monitorinqini aparıb? Nə edirsə etsin, özü bilər, amma şərt atmağı düzgün deyil. Bu gün ölkədə o qədər qeyri-peşəkar hüquq müdafiəçiləri ortaya çıxıb ki, dedikləri bir cümlənin belə həbsdəki məhbusa, onların ailələrinə necə bir təsir etdiyini anlamırlar. 3-4 siyahının hazırlanması beynəlxalq təşkilatlarda çaşqınlıq yaradır. Yaxşı olardı ki, yoxa çıxmış peşəkar hüquq müdafiəçilərinin bir yerə toplanmalarına şərait yaradılsın”.

**SMMM üzvü Əvəz Zeynallı hazırladıqları 161 nəfərlik siyahının tam reallığa söykəndiyini söylədi:** “İşçi qrupu siyahılarını hər zaman məhdud tutur. Biz həbsdə olanda da belə idi. Siyahılarındakı şəxslərin sayı adətən 25-30 olur. Əslində bütün siyahılara normal yanaşıram. Azərbaycanda siyasi məhbusların sayı 160-dan çoxdur. Bunu bilməyən adam yoxdur. Düşünürəm ki, bizim siyahımızda bu qədər məhbusun adının olması digər siyahılarda olan şəxslərin azadlığa buraxılma ehtimallarını artırır. İşçi qrupu bizim siyahılar əsasında 30 nəfəri hazırlayır. Biz siyahımızı elan edirik, İşçi qrupu siyahımızın içərisindən ən populyar olanlarından 30-35 nəfərini seçir. Bu siyahıların cəmiyyətə heç bir ziyanı yoxdur. Kaş İşçi qrupunun siyahısındakıların hamısı azad olunsun. İndi 30 nəfər buraxılacaqsa, növbəti dəfə də bu qədər şəxs azad olunacaq. Mən qarşıdurmadan yana deyiləm. Bizdə siyasi məhbusların sayı 160-dan da çoxdur. Sadəcə, biz yaxşı işləyə bilmirik. Onlar 30 nəfər deyirlərsə, onları buraxdırsınlar, bizim siyahı ilə nə işləri var?”

❑ **Cavanşir ABBASLI,**
❑ **“Yeni Müsavat”**

# Azərbaycanın avtoritar ölkələr siyahısına salınmasına sərt təpki

## Zahid Oruc: “Kremllə münasibətləri normal olan ölkələri sizlər qara yerdə görəcəksiniz”

**Son bir ildə qlobal miqyasda demokratiyada ciddi geriləmə baş verib. “Economist Intelligence Unit ttp://www.eiu.com/home.aspx” bunu yanvarın 31-də açıqladığı illik Demokratiya İndeksində bildirilir. Bu indeks 2017-ci ildə 165 müstəqil ölkə və iki ərazidə demokratiyanın durumunu öyrənib.**

Azərbaycan 148-ci yerdə “avtoritar ölkə” kateqoriyasında qərarlaşıb. Qonşulardan Gürcüstan (79) və Ermənistan (111) hibrid rejimlər sırasındadır. Rusiya (135) avtoritar ölkə sayılıb. Bu kateqoriyada Qazaxıstan, Belarus, Əfqanıstan, İran, Özbəkistan, Tacikistan, Türkmənistan da var.

Media Azadlığı İndeksinə gəlincə, Azərbaycan (154), Rusiya (139) qeyri-azad, Gürcüstan (49) qismən azad, Ermənistan (109) əsasən qeyri-azad sayılıb.

Beynəlxalq qurumun Azərbaycanı son sıralarda göstərməsi, xüsusilə qonşu ölkələrdən geriyə atması ciddi etiraz doğurub. Hesabatın qərəzli olduğu barədə sərt reaksiyalar səsləndirilir.

**İqtidaryönlü deputat Zahid Oruc bildirdi ki, həmin hesabatın parlamentariləri saxta məlumatlara əsaslanıblar:** “Bu nəticələrin reallığı əks etdirmədiyini xüsusi olaraq vurğulamaq lazımdır. Üstəlik, bunun sovet dövrünün məlum ideoloji qaydaları ilə tərtib edildiyini qeyd etmək istəyirəm. Ötən dövr ərzində sovetlər birliyinin dağılması və sosializmin çöküşü fonunda ölkələr beynəlxalq aləmə keçid etməyə can atırlar. Bunların hərəsində müəyyən inkişaf tempi var, xarici siyasət kursları mövcuddur. O ölkələr ki, Qərb üfüqündə qərarlaşırlar, həmin ölkələr bu tipli hesabatlarda yüksək dəyər alırlar. Zənn edin ki, demokratiyanın müəllimləri var. Onlar tələbələrini çox yaxşı tanıyırlar.






Ölkələri bu cür də rəngləyiblər. Hansısa bir ölkədə inqilabı proseslər baş verirsə, bunun nəticəsində plan qurmağa çalışırlar. Təsəvvür edin ki, həmin kriteriyaları Liviya, İraq və Əfqanıstana necə tətbiq edirsən. Oradan ağır nəticə çıxarırlar. Halbuki heç olmasa keçmiş dönəmlərdə yaşama hüquqları mövcud idi. Sizlər dağılmış məmləkətlərə nə mətbuat, nə demokratiya indeksi müəyyən edirsiniz? Bunlar doğrudan da çox ağlasığmayan məsələlərdir. Burada ən çox Azərbaycan kimi ölkələrə olan yanaşmadan danışmalıyıq. Cənab prezidentin Davos Forumunda söylədiyi kimi, bizi forpost kimi görmək istəyən böyük güclər var. Bunların nəzərində biz ya Rusiya tərəfdən Qərbə qarşı cəbhə olaraq vuruşmalıyıq, ya da tam əksinə, Avropa Birliyinin, Qərb dairələrinin vasitəsilə Rusiyaya qarşı savaş cəbhəsi açmalıyıq, bu ölkəyə qarşı olan sanksiyaları və digər bu kimi təzyiqləri müdafiə etməliyik. Məlumdur ki, Kremllə münasibətləri normal olan ölkələri sizlər qara yerdə görəcəksiniz. Bu dəqiqliyi ilə belədir. Azərbaycana Allahsız bir yanaşma var. Həqiqətən bu ölkə böyük bir yol keçib, bu millətin özünəməxsus savadı, istedadı, qabiliyyəti, azad düşüncələri var. Ayrı-ayrı şəxslərin azadlığı ilə bağlı medianın durumunu dəyərləndirmək yanlışdır. Bir şeyi unutmaq olmaz ki, bizim ölkə ilə bağlı hazırlanan hansısa ssenarilər bu hesabatlarla sinxrondur. Əvvəlcə səni damğalayırlar, ittiham edirlər, ləkələyirlər, beynəlxalq aləmdə bu cür zərbələr vururlar, sonra üzərinə demokratiyanın tankları gəlir. Bombalı demokratiyalar nəzəriyyəsi var, bunu sənə qarşı açırlar. Bunlar olmadıqda Corc Soros kimiləri deyəcək ki, valyutanın bir hissəsini ver və sərəncamımda ol. Bunlar olmadığı təqdirdə, bax belə, onların dünya miqyasında demokratiyanı təftiş edən müfəttişləri var. Sovet dövrünün Kremldən gələnləri heç bunlar qədər sərt deyildilər. Onların verdikləri qiymətə nəticələr uyğun olur. Səhəri gün Azərbaycan deyil, başqa bir ölkədə tanklar meydanlara çıxsın, hakimiyyət devrilsin, küçə toqquşmaları baş versin, bunların nəticəsində fərqli qiymətlər veriləcək. Ona görə də bununla bağlı Azərbaycanla işləmək istəyən beynəlxalq təşkilatlara bildirmək istəyirəm ki, hər bir tərəfin mövqeyini alsınlar. O zaman biz o güzgüyə obyektiv yanaşacağıq, onu özümüzdə əks etdirən məqam kimi dəyər verəcəyik”.

❑ **Cavanşir ABBASLI,**
❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 25 (6914) 2 fevral 2018



# Milli Məclis tribunasından amnistiya təşəbbüsü

## Hakim partiyanın təmsilçisi Cümhuriyyət ilində məhbusları azad etməyə çağırdı; **Siyavuş Novruzov:** “Bu amnistiya aktı ilk növbədə Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda döyüşmüş hər kəsə şamil edilsin”

**Fevralın 1-də Milli Məclisin yaz sessiyasının ilk plenar iclası keçirildi. Dövlət Himninin oxunmasından sonra spiker Oqtay Əsədov giriş nitqində bildirib ki, prezidentin sərəncamına əsasən Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə dövlət səviyyəsində tədbirlər, o cümlədən iyunun 8-də Azərbaycan parlamenti Cümhuriyyət ili münasibətilə, qonaqların iştirakı ilə xüsusi iclas keçiriləcək. Sədr qeyd etdi ki, bununla əlaqədar xüsusi komissiya yaradılıb və qarşıda bizi gərgin işlər gözləyir.**

Bundan sonra Milli Məclisin İntizam və Hesablayıcı komissiyalarının yenidən təşkil olunması məsələsi səsə qoyuldu və qəbul edildi.

2018-ci il yaz sessiyasının Qanunverici işlər planının müzakirəsi zamanı bir sıra maraqlı çıxışlar oldu. İclasda amnistiya təşəbbüsü də qaldırıldı.

**Deputat Fazil Mustafa çıxışında ermənilərə qarşı təbliğat işində fəal olmağa çağırdı:** “Xocalı faciəsinin 26-cı ildönümünə az vaxt qaldığı bir zamanda AŞPA-da çıxış edən Ermənistan prezidenti Serj Sərkisyan Sumqayıt hadisələrindən danışdı. Görünən odur ki, ermənilər 30 il əvvəl baş vermiş Sumqayıt hadisələrini xatırlatmaqla bundan bizə qarşı istifadə etməyə çalışır. Əslində Sumqayıt hadisələrinin erməni əsilli Eduard Qriqoryan tərəfindən törədilməsini sübut edən sənədlər var. Bununla bağlı Respublika Prokurorluğunda zamanında ciddi araşdırma aparılıb. Xocalı faciəsinin ildönümünə 25 gün qalıb və indidən bütün təbliğat vasitələrini işə salmaq lazımdır. Görünən odur ki, ermənilər Xocalı hadisəsindən bizə qarşı istifadə etmək istəyir. Fikrimcə, biz bunu nəzərə almalı və beynəlxalq mediaya çıxış imkanlarından geniş istifadə etməliyik”.

Deputat Siyavuş Novruzov Xalq Cümhuriyyətinin 100 illiyinin olduğunu dedi. Eyni zamanda deputat bildirdi ki, bu il mərhum prezident Heydər Əliyevin də anadan olmasının 95 illiyidir. Deputat bununla bağlı tədbirlər planının hazırlanmasını vacib saydı.

**S.Novruzov ötən illərdə 63 əfv fərmanı, 11 amnistiya qərarının olduğunu xatırlatdı:** “2016-cı ildə Mehriban xanımın irəli sürdüyü amnistiya aktı 10 mindən artıq məhbusa şamil edildi. Həm Cümhuriyyətin 100 ili, həm ümummilli liderin anadan olmasının 95 illiyi münasibətilə amnistiya aktının imzalanmasını təklif edirəm. Bütün deputat həmkarlarımızla bir yerdə cənab prezidentdən xahiş edək ki, bu təşəbbüsü də öz üzərinə götürsün və daha geniş amnistiya təşəbbüsü ilə çıxış etsin. Bu amnistiya aktı digərlərindən fərqlənməlidir. Bu, bütün vətəndaşlarımızın gözləntisi olan məsələ olduğu üçün bunu həmkarlarımızın diqqətinə çatdırıram. Bu dəfə maddələrlə deyil, prinsip etibarilə də əhatə dairəsi daha geniş olmalıdır. Bu amnistiya aktı ilk növbədə Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda döyüşmüş hər kəsə şamil edilsin. Ola bilər ki, hansısa silahlı birləşmələrin sırasına düşüblər, səhvə yol veriblər. Amma artıq uzun müddət keçib və səhvlərini başa düşüblər. Həmçinin yaşı 60-ı keçmiş, həmçinin himayəsində azyaşlı uşaqları olanlara şamil olunsun. Onlarla uşaq bu gün özlərindən asılı olmayaraq məhkumluq həyatı yaşayır. Yaxud valideyni həbs olunub və biz potensial cinayətkarı yetişdiririk. Həmçinin yaşı 70-dən yuxarı olan bütün kişilərə, radikal dini cərəyanlara qoşulmayan bütün dindar şəxslərə şamil olunmalıdır”.

**S.Novruzov ardınca bildirdi:** “Müxtəlif radikal müxalifət qurumlarınn, yaxud ayrı-ayrı qrupların təsiri altına düşən gənclər var. Bunlar öz uşaqların xaricdə oxudur, başqalarının uşaqlarını cinayətə sövq edirlər. Amma uşaqlar da artıq öz günahlarını başa düşüb. Eyni zamanda xaricdə müxtəlif qruplar var ki, Azərbaycana insan hüquqları, siyasi məhbus bəhanəsi ilə təzyiqlər edirlər, böhtan atırlar, sui-istifadə edirlər. Bu vəba xəstəliyini aradan qaldırmaqdan, o adamların qarayaxmalarını kəsməkdən ötrü bu cür adamların hamısı ilə bağlı məsələyə son qoyaq. Bəzən heç 3 adamın tanımadığı adam haqqında deyirlər ki, bu adam prezidentliyə ən ciddi namizəd olduğu üçün həbsdə saxlanılır”.

Spiker Oqtay Əsədov isə “Siyavuş müəllim, siz hamısını bir-birinə qatdınız. Amnistiya maddələrlə olur. Amma dediyiniz şəxsləri cənab prezident əfv edə bilər” - deyə, bildirdi.

**Deputat Qüdrət Həsənquliyev də həmkarının amnistiya təklifini dəstəklədi. Bildirdi ki, həm mərhum prezident Heydər Əliyevin 95 illiyi, həm Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə amnistiyanın verilməsi çox yaxşı olardı:** “Həmçinin bu il mərhum prezident Əbülfəz Elçibəyin 80 illik yubileyidir. Mən də o fikirdəyəm ki, geniş amnistiya vermək bizim milli maraqlarımız baxımından çox vacibdir. Xüsusilə ağır cinayətlər törətmiş şəxslər istisna olmaqla, digərlərinə amnistiya tətbiq oluna bilər. Amma bu, o demək deyil ki, həmin şəxslər hamısı azadlığa buraxılmalıdır. Həmin şəxslərin cəzaları yüngülləşdirilə bilər”.

**Daha sonra Q.Həsənquliyev Vəkillər Kollegiyasına qəbulla bağlı keçirilən son imtahandan bəhs etdi. O bildirdi ki, hazırda Azərbaycanda hər 100 nəfərə 8 vəkil düşür:** “Bizdən yuxarıda Bosniya-Hersoqovinada isə 34 nəfər düşür. Avropa ölkələrində isə vəkillərin sayı bizdən 40-45 dəfə çoxdur. Kollegiyaya üzvlüklə bağlı 2 minə qədər müraciət olmuşdu, çox təəssüf ki, cəmi 600 nəfər keçid balı topladı”. **Q.Həsənquliyev yaz sessiyasında vəkillər haqqında yeni qanunun qəbul olunmasını zəruri saydı. Həmçinin təklif etdi ki, keçid balı 60 baldan 50-yə endirilsə, xeyli sayda yeni üzvlər Vəkillər Kollegiyasına seçilə bilər:** “Bizim elə rayonlar var ki, orada 1 hakim var, amma vəkil yoxdur. Vətəndaş hüquqları bizi ciddi şəkildə düşündürməlidir. Biz elə etməliyik ki, hər rayonda heç olmasa 3 hakim, 4-5 vəkil olsun. Hətta bu müraciət edənlərin hamısı Kollegiyaya üzv olunsaydı belə, yenə də biz Avropa ölkələrindən 20 dəfə geri qalacaqdıq. Ona görə də burada radikal qərarlar qəbul etmək lazımdır”.

**Birinci vitse-spiker Ziyafət Əsgərov dedi ki, hakimlərin sayı ilə bağlı problem var:** “Mən də sizinlə razıyam, həqiqətən də bu sahədə Avropa ölkələrindən geridəyik. Amma keçid balını 60 baldan 50 bala endirsək, sabah deyəcəklər ki, 50 balı da 40-a endirin. Xalqa keyfiyyətli hüquqi yardım göstərmək istəyən hüquqşünas 60 bal toplaya bilmirsə, bu, qeyri-ciddi məsələdir”.

**Deputat Tahir Kərimli də amnistiya təşəbbüsünü dəstəklədi:** “Prezidentin əfv fərmanı verəcəyinə inanırıq”.

**T.Kərimli Xalq Cümhuriyyətinin 100 illiyi, yaxud parlamentin 100 illiyi medalının təsis olunmasını da təklif etdi. O, AXC ilə bağlı kompleksin yaradılmasını da zəruri saydı:** “Burada muzey, kompleks də ola bilər. Dini xadimlərlə məsləhətləşib xaricdəki Cümhuriyyət qurucularımızın da məzarını Azərbaycana gətirə bilərik”. 1918-ci ildə törədilmiş soyqırımın 100 illiyinin də tamam olduğunu deyən T.Kərimli həmin tarixi faciənin də yüksək səviyyədə qeyd olunmasını təklif etdi.

**Deputat Qənirə Paşayeva xaricdəki Cümhuriyyət qurucularımızın bir qisminin məzarlarının vaxtilə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə abadlaşdırıldığını xatırlatdı. Həmçinin Cümhuriyyət qurucularının böyük əksəriyyətinin məzarının Türkiyədə olduğunu dedi və bildirdi ki, bizim müvafiq qurumlarımız Türkiyənin müvafiq qurumları ilə həmin məzarların təmir olunması istiqamətində addımlar atsa, çox yaxşı olardı. Q.Paşayeva digər məsələlərə də toxundu:** “Həmkarlarımızın təklifi var ki, köhnə ”26-lar" bağının adı Cümhuriyyət bağı elan edilsin. Mən də bu təklifi dəstəkləyirəm". Xanım deputat azərbaycanlıların soyqırımının 100 illiyi, həmçinin Xocalı soyqırımının ildönümü ilə bağlı tədbirlərin keçiriləcəyini bildirdi. Xanım deputat Şəhidlər Xiyabanında xarici turistləri məlumatlandırmaq üçün Bakı Şəhər İcra Hakimiyyətini addımlar atmağa çağırdı. Deputat Dağlıq Qarabağa səfərlərin qarşısını almaqdan ötrü işğal olunmuş ərazilərimizlə bağlı qanun layihəsinin müzakirə olunmasını təklif etdi.

**Deputat Rövşən Rzayev Dağlıq Qarabağdakı qanunsuz rejimin 30 illiyi ilə bağlı tədbirlər hazırladıqlarını və Minsk Qrupunun həmsədr dövlətlərini də həmin tədbirlərə dəvət etdiklərini söylədi:** “Biz Minsk Qrupu həmsədrlərinə üzv olan ölkələrə müraciət edək ki, onlar bu addımdan əl çəksinlər”.

**Deputat Elmira Axundova bildirdi ki, illər öncə respublikanın müxtəlif regionlarında, xüsusilə Abşeron yarımadasında vətəndaşlar tərəfindən kənd təsərrüfatı təyinatlı torpaqlarda kompakt şəkildə xeyli sayda yaşayış məntəqələri inşa edilib:** “Elə ərazilər var ki, insanlar artıq 20-30 ildir ki, orada inşa etdikləri fərdi evlərdə yaşayırlar, övladlarını böyüdürlər, oğul evləndirib, qız köçürürlər. Lakin kompleks yanaşma olmadığından, bu ərazilərin torpaqları hələ də rəsmi sənədlərdə ”kənd təsərrüfatı təyinatlı" torpaqlar olaraq qeydiyyatdadır. O səbəbdən də insanlar 20 ildən artıqdır ki, yaşadıqları evlərə qeydiyyata düşə bilmirlər. Bu problemi imkan qədər tez həll etmək lazımdır".

**Deputat Qüdrət Həsənquliyev şadlıq evlərinin fəaliyyətini tənqid etdi:** “Vaxtilə Azadlıq meydanındakı mitinqlər zamanı iki səsgücləndirici qoyulurdu, səs Şıx çimərliyinə qədər çatırdı. İndi restoranlarda bir zala 6 səsgücləndirici qoyulur. Beləliklə toya gedənlər ən uzağı bir saat orda otura bilir. Nəticədə restoran sahibi bahalı yeməkləri 400 nəfər üçün sifariş aldığı halda, 200 nəfərə verir, beləliklə, əlavə qazanc götürür. Eyni zamanda səsin yüksək olması bir çox xəstəliklərə də səbəb olur. Xahiş edirəm, bu məsələyə ciddi nəzarət olunsun”.

Spiker Oqtay Əsədov isə “az sayda şadlıq evi var ki, orada akustika normativə uyğun olaraq quraşdırılıb” - dedi.

**Deputat Əflatun Amaşov bildirdi ki, Mətbuat Şurası hüquqi statusunun dəyişdirilməsinə, eyni zamanda ayrıca qanunun qəbul edilməsini ciddi ehtiyac var:** “Biz bu gün ictimai təşkilat olduğumuzdan bəzən müvafiq addımlar ata bilmirik. Bu gün mətbuatda jurnalist adına xələl gətirən, jurnalist adından sui-istifadə edən, bazar açan ünsürlər yayılıb. ”Reket jurnalistika"dan əziyyət çəkirik. Mətbuat Şurasının hüquqi statusunun yenilənməsi ilə “reket jurnalistika”ya qarşı mübarizədə, mətbuatda balanslaşdırılmanın aparılmasında ciddi addım atmış olarıq. Buna zəruri ehtiyac var".

**Daha sonra deputat digər məsələlərə toxundu:** “Əlamətdar haldır ki, bu il cənab prezidentin sərəncamı ilə ölkəmizdə ”Cümhuriyyət ili" elan olunub. Bununla bağlı çoxsaylı tədbirlərin təşkili gözlənilir. Azərbaycan Xalq Cümhuriyyəti 2 il müddətində bir çox sahələrə olduğu kimi, mediaya da böyük diqqət ayırdı. Xalq Cümhuriyyətinin mövcud istiqamətdə qarşıya qoyduğu məqsədlərdən biri də nəşriyyat evinin tikilməsi idi. Lakin bu işin həyata keçirilməsi mümkün olmadı. Həmin ideya ötən əsrin 30-cu illərində reallaşdı. 1933-cü ildə Bakıda Mətbuat Sarayı deyilən bina istifadəyə verildi. Həmin bina indiki Azərbaycan prospektində yerləşir. Onu da deyim ki, bina Mədəniyyət və Turizm Nazirliyinin reyestrində memarlıq abidəsi kimi qeydiyyata alınıb. Uzun müddət “Azərnəşr”in fəaliyyət göstərdiyi bu bina 1995-ci ildə “Bank Standart”a baş ofis kimi verilib". **Ə.Amaşov qeyd etdi ki, binanın özəllikləri kifayət qədərdir:** “Diqqət yetirmisinizsə, kitab şəklindədir. Daxili strukturunda isə hər detal sırf nəşriyyat-çap işinin həyata keçirilməsinə hesablanıb. İnşaat materiallarının seçilməsindən tutmuş otaqların havalandırılmasınadək, hətta işçilər üçün şəraitə qədər ən kiçik detal nəzərə alınıb. Bununla əlaqədar sənədlərlə tanış olmuşam. Təklifim bundan ibarətdir ki, Mətbuat Sarayı adı ilə inşa edilmiş həmin bina keçmiş sahiblərinə qaytarılsın və çox yaxşı olardı ki, orada mətbuat muzeyi yaradılsın”.

**Yekunda “Peşə təhsili haqqında” qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı. Qanun layihəsini akademik-deputat İsa Həbibbəyli təqdim etdi.**

**Deputat Vahid Əhmədov layihəyə tənqidi yanaşdı:** “Biz vaxtilə sovet sistemini bəyənmirik. Amma sovet dövründə peşə təhsili sistemi çox düzgün qurulmuşdu. Sonrakı illərdə peşə təhsilinə düzgün yanaşma olmadığı üçün sistem dağıldı. O zaman peşə təhsili ilə məşğul olan hər bir müəssisəsinin özünün istehsalat sahəsi var idi. İndi də belə istehsalat sahələri yaradılmalıdır. Xüsusilə də rəqabətə davamlı istehsalat sahələrinin yaradılmasının tərəfdarıyam”. V.Əhmədov qanun layihəsi ilə bağlı sualların həddən artıq çox olduğunu bildirdi: “Oqtay müəllim, konseptual cəhətdən qanun düzgün hazırlanıb, amma bunun üzərində işləmək lazımdır”.

**Deputat Aqiyə Naxçıvanlı isə həmkarının fikirlərini təqdir etməklə yanaşı, peşə təhsili müəssisələri ilə bağlı prosesə iş adamlarının cəlb edilməsini zəruri saydı: “Bu sistem yenidən qurulur, olan laboratoriyalar hamısı dağıldı”.**

**Deputat Elmira Axundova bir çox peşə məktəblərinin əsaslı təmirə möhtac olduğunu söylədi, həmçinin təkliflər verdi.**

**İlk oxunuşda layihə qəbul edildi.**

### Deputatlar vəkilliyə qəbul balının aşağı salınmasını, işğal haqqında qanunun qəbulunu, Cümhuriyyətlə bağlı addımlar atılmasını da təklif etdilər

**❑ E.PAŞASOY**
**“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 25 (6914) 2 fevral 2018

# Hakimiyyət namizəd müəmmasına son qoydu

## YAP-ın icra katibinin dili ilə cəmiyyətə və dünyaya mesaj verildi; hökumət üçün İlham Əliyev faktorunun önəmi bir daha təsdiqləndi; “bəs iqtidar nəyə görə öz namizədini indi açıqladı” sualına cavab tapıldı…

**Fevralın 1-də Yeni Azərbaycan Partiyasının icra katibi, baş nazirin müavini Əli Əhmədov hakim partiyanın prezidentliyə namizədinin dövlət başçısı İlham Əliyev olduğunu açıqlayıb. Əli Əhmədov bunu jurnalistlərə açıqlamasında bildirib.**

Əli Əhmədov YAP Gənclər Birliyinin 2017-ci ilin yekunlarına və 2 fevral Gənclər Gününə həsr olunmuş tədbirində çıxışı zamanı da İlham Əliyevin prezident seçkilərində YAP-ın namizədi olacağını bəyan edib. Əli Əhmədov deyib ki, bu ilin oktyabr ayında prezident seçkisi keçiriləcək və YAP növbəti dəfə prezident İlham Əliyevin prezidentliyə namizədliyini irəli sürəcək. “İlham Əliyevin cəmiyyətdə yüksək reytinqi onun qələbəsi üçün əsas yaradır. Gənclər də seçkilərin yüksək səviyyədə keçməsi üçün fədakarlıqlar etməlidir. Əminəm ki, gənclər bunu dərk edirlər” deyə, o bildirib.

YAP-ın namizədinin elan edilməsi günün hadisəsi olub. Təcrübə göstərir ki, YAP adətən rəhbər qurumunun və ya qurultayının qərarı ilə namizədini elan edirdi. Qərar isə seçkiyə az qalanda verilirdi. Bu dəfə bir qədər erkən və qurultay olmadan icra katibinin vasitəsilə cəmiyyətə namizədin elan edilməsi maraq doğurmaya bilməz.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a şərhində bildirib ki, bu açıqlamanın verilməsinin qurultayla əlaqəsi yoxdur. Sadəcə, prezident hakimiyyətin bütövlüyünü qorumaq məqsədilə namizədliyini erkən açıqladı və bu addım doğru addım idi:** “Şəxsən mənə çatan xəbərlərə görə, hakimiyyət içində namizədin kimliyi ilə bağlı ciddi narahatlıqlar baş qaldırmışdı, kiminlə olacaqlarını müəyyənləşdirməyə çalışarkən təhlükəli oyunlara girişirdilər. Bu, Azərbaycanın dövlət təhlükəsizliyinə də problem yarada bilərdi. Çünki bəzi xarici ölkələr də "kimə stavka edək" sualına cavab üçün Azərbaycan hakimiyyətinə təzyiqləri artıra bilərdi. Əli Əhmədovun hakim partiyanın prezidentliyə namizədinin dövlət başçısı İlham Əliyev olacağını açıqlaması şayiələrə son qoydu. Əlbəttə ki, Əli Əhmədovun açıqlaması razılaşdırılmış qərarın anonsu idi. Prezident İlham Əliyev bir il əvvəl xanımı və Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanı birinci vitse-prezident təyin etdi. Bundan sonra gələcək prezident seçkisində hakimiyyətin namizədinin Mehriban Əliyevanın da ola biləcəyi müzakirələri genişləndi. Ancaq bunun üçün Mehriban Əliyevanın namizədliyini İlham Əliyev irəli sürməliydi. Bu ehtimal çox az idi, ancaq var idi, siyasi kuluarlarda müzakirə olunurdu. Mehriban Əliyevanın reytinqi əhali arasında yüksəkdir. Yəni Mehriban Əliyevanın namizədliyi irəli sürülsəydi, onun da İlham Əliyev kimi prezident seçilməsi şansı yüksək idi. Buna baxmayaraq, İlham Əliyev özü prezident olacağına qərar verdi".



**Politoloq hesab edir ki, bunun 3 önəmli səbəbi var:** “Birincisi, dövlət başçısı strateji baxımdan doğru qərar verdi, bu qərarını çox uzada bilməzdi. Çünki hakimiyyətin namizədi kim olacaq sualı ətrafındakı qeyri-müəyyənlik hakimiyyət içində gərəksiz müzakirələrə səbəb olur. Hakimiyyət içindəki bəzi qruplar digər namizədin irəli sürülməsindən ehtiyat edə, mövqelərini qorumaq üçün müxtəlif təhlükəli oyunlara qoşula bilərdilər. Bu isə hakimiyyətin özü üçün və dövlətin təhlükəsizliyinə müəyyən problemlər yarada bilərdi. İlham Əliyevin namizədliyinin elan olunması hakimiyyətin monolitliyini qorudu. Ancaq prezident həm seçkidən əvvəl, həm də sonra hakimiyyətdəki fiqurları dəyişməkdə davam edəcək.

İkincisi, prezident İlham Əliyev böyük iqtisadi, enerji və nəqliyyat layihələrin başlanğıcını qoyub və onların reallaşmasını, o cümlədən gəlir gətirən dövrünə özü şahidlik etmək istəyir. Bu layihələrin icrası həm Azərbaycanın gəlirlərini artıracaq, həm insanların sosial və iqtisadi problemlərinin həllini sürətləndirəcək, həm də Azərbaycanın bölgədəki nüfuzunu yüksəldəcək. Ancaq bütün bunlar 3-5 il ərzində baş verəcək. Ona görə də həmin dövrdə İlham Əliyev özü ölkəyə rəhbərlik etmək istəyir ki, bu onun nüfuzunun daha da artmasına şərait yaradacaq.

Üçüncüsü, Azərbaycanda maraqları olan bır sıra ölkələr də ölkəmizdəki seçkiqabağı vəziyyəti təhlil edir, “kimə stavka edək” kimi təhlükəli oyunlara baş vurmaq ərəfəsində idilər. Bu qərarın tez elan edilməsi həm də ölkəni xarici təhlükələrdən də qorumağı hədəfləyib".

E.Şahinoğlu növbədənkənar seçkinin keçiriləcəyini ehtimal etmədiyini dedi.

**Müxalifət düşərgəsinin təmsilçisi, AXP sədri Pənah Hüseyn isə YAP-ın namizədinin açıqlanmasına belə münasibət bildirdi:** “Bu, gözlənilən idi. Əslində Əli Əhmədovun açıqlamasından öncə də YAP-ın digər yetkili şəxsləri tərəfindən buna bənzər açıqlamalar səslənirdi. Əvvəldən gözlənilirdi ki, YAP-ın namizədi İlham Əliyev elan olunacaq. İndi bəyan edilməsinə gəlincə, bilirsiniz ki, müəyyən müzakirələr gedirdi ki, ola bilsin iqtidarın namizədi birinci vitse-prezident Mehriban Əliyeva olacaq. Qeyri-müəyyənliyi aradan qaldırmaq üçün namizədin kimliyi açıqlandı”.

“Yeni Müsavat” xatırladır ki, 2013-cü ildə də hakimiyyətin namizədinin M.Əliyeva olacağına dair versiyalar səsləndirilirdi. O vaxt iqtidar bu versiyalara təmkinli yanaşma sərgiləyirdi. O üzdən İlham Əliyevin namizədliyi 2013-cü ilin iyun ayında, YAP-ın qurultayında elan edildi. Görünür, İ.Əliyevin seçkidə namizəd olacağının ötən dəfəkindən 4 ay öncə elan edilməsinin ciddi səbəbləri olub.

**❑ Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# İki süpergüc vuruşur: necə edək ki, “sendviç” olmayaq?

## Politoloq: “Nə Rusiya, nə İranın əvəzindən cavabdeh rolunda olmayacağıq”

**Son zamanlar dünyanın iki supergüc dövləti olan ABŞ-la Rusiya arasındakı münasibətlər daha da gərginləşərək, pik həddə çatıb. Bununla yanaşı, Amerikanın cənub qonşumuz olan İranla da münasibətləri daha da pisləşib. Amerikanın hər iki qonşumuza tətbiq etdiyi ağır siyasi sanksiyaların, təzyiqlərin bizə hansı təsirləri olacaq?**

“Yeni Müsavat”a danışan **politoloq Qabil Hüseynli** bildirib ki, kiçik dövlət olan Azərbaycan əslində elə də böyük ambisiyalarla yaşamır: “Yeni dünya nizamına bir narahatlıq gətirən, bunu pozan hər hansı bir addım atmırıq. Bəli, Amerikanın əsas hədəfində duran ölkə Rusiyadır və hazırda ABŞ Rusiyanı sıradan çıxarmağa çalışır. Buna Rusiyanın müəyyən hərəkətləri də səbəb olub. Krımın ilhaqı, Ukraynaya olan basqılar, Gürcüstanın müəyyən əyalətlərinin işğalı, Suriyada aparılan əməliyyatlar və sair. İran da sakit dayanmır. Son bir neçə ildə İran, həm İraqı, həm də Suriyanın müəyyən hissələrini özünün təsiri altına sala bilib. Hətta bəzi məlumatlara görə, İran artıq Aralıq dənizinə çıxan bir ölkəyə çevrilib. Üstəlik də onun nüvə texnologiyalarına yiyələnmək uğrunda apardığı mübarizəsinin bitdiyini söyləmək risklidir. Proses bir miqyasda da olsa, davam edir. Deməli, İranın da dünya üçün müəyyən təhdid yarada biləcəyi Amerikanı narahat etməkdədir. Azərbaycan isə bu iki dövlətin arasındadır. Lakin bu iki dövlətin arasında çox ustalıqla siyasi gedişlər edib, onlarla münasibətləri qorumağa çalışır. Heç kim deyə bilməz ki, Azərbaycanın İran və yaxud da Rusiya ilə ikitərəfli münasibətləri ideal səviyyədədir. Yaxud da kimsə söyləyə bilməz ki, Azərbaycan hər iki dövlət üçün ciddi bir müttəfiqə çevrilib və onların yerinə cavab verməlidir. Tarixən Azərbaycan həm Rusiya, həm də İrandan ziyan görmüş ölkədir. Azərbaycanın bu ölkələrlə münasibətləri qoruyub saxlaması çox böyük əzab-əziyyətlər hesabına başa gəlir. Azərbaycanın Dağlıq Qarabağ probleminin yaranmasında Rusiya səbəbkardır. Bu gün isə həmin problemin beynəlxalq hüquq normalarına uyğun formada həll edilməməsində müəyyən xidmətlər göstərən İran var. Bir zaman Səməd Seyidov söyləmişdi ki, Azərbaycan "sendviç" formasındadır, hər tərəfdən sıxılır. Zənnimcə, bu gün dövlətlərlə münasibətləri müəyyən qədər qoruyub saxlamaq mümkün olubsa, bu da Azərbaycanın yürütdüyü balanslaşdırılmış xarici siyasi xəttin və siyasi müdrikliyin hesabına baş verib. Əks təqdirdə, biz də Gürcüstan, Ukrayna kimi Rusiyadan, İrandan müəyyən zərbələr ala bilərdik".



**Politoloq bildirib ki, Amerikanın Azərbaycandan tələbləri əsasən insan haqları ilə bağlıdır:** “Bu gün Qərblə bizim münasibətlərimizdə müəyyən dərəcədə gərginlik yarada biləcək bir hal varsa, bu, ilk növbədə siyasi məhbuslar məsələsi ilə bağlıdır. Azərbaycan Qərb üçün həm geostrateji, həm də özünün təbii ehtiyatlarına görə əhəmiyyətlidir. Azərbaycanın neft ehtiyatlarının böyük bir hissəsi Amerikanın müttəfiqləri olan Qərb ölkələrinin və İsrailin ehtiyaclarının ödənilməsinə gedir. TANAP layihəsi də Qərb ölkələrinin qaz təchizatına və burada Rusiyanın təbii qazdan siyasi təhdid elementi kimi istifadə etməsinin qarşısını ala biləcək layihə kimi dəyərləndirilə bilər. Azərbaycan Qərblə Şərqi bir-biri ilə birləşdirən Bakı-Tiflis-Qars dəmir yolu xəttinin demək olar ki, hamısını öz vəsaiti hesabına çəkib, işə saldı. Bütün bunlar indiki dünya iqtisadi böhranı səviyyəsində, dünyaya töhfə verə biləcək amillərdəndir. Azərbaycan NATO-nun da bir sıra tədbirlərində iştirak edir. Əfqanıstana əsgərlərlə bağlı daşınan yüklərin 80 faizi bizim üzərimizdən və Xəzər dənizi vasitəsilə çatdırılır. Əvvəl əgər Azərbaycan Əfqanıstana 80 nəfərlik qoşun heyəti göndərirdisə, indi bunu NATO-nun xahişi ilə 120 nəfərə qaldırmışıq. Bir sözlə, Azərbaycan özünün resursları, xarici siyasəti ilə Qərbin maraqlarına cavab verir. Avropa İttifaqı ilə də intensiv danışıqlar aparırıq. Yəqin ki, çox da uzaq olmayan dövrdə Avropa İttifaqı ilə də sazişə imza atacağıq. Siyasi məhbuslarla bağlı isə "qızıl amnistiya" deyilən misli görünməmiş layihə üzərində iş gedir. Bu amnistiya inanıram ki, siyasi məhbus problemini də həll edəcək. Doğrudur, heç də liberal dəyərlərin hamısını ideal səviyyədə həyata keçirmirik. Müəyyən nöqsanlar var. Ancaq hər halda, Azərbaycan Qərb üçün əhəmiyyətlidir və bu əhəmiyyət getdikcə artır. Ona görə də biz nə Rusiya, nə İranın əvəzindən cavabdeh rolunda olmayacağıq. Rusiyadan silah alırıq ki, bu da artıq başa çatmaq üzrədir. Müqavilə tarixinin bitməsinə az qalıb. Bitərsə, çox güman ki, Azərbaycan Rusiyadan silah almağı dayandıra bilər. Bu, Rusiyaya tətbiq edilən növbəti sanksiya dalğasından da asılıdır. Azərbaycanın Qərbə inteqrasiyası yeni mərhələdə başlayacaq. ABŞ-la münasibətlərimizdə isə gərginliyin olacağı qənaətində deyiləm".

**❑ Əli RAİS, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 25 (6914) 2 fevral 2018

**Akademik Ziya Bünyadovun qətlində günahlandırılaraq ömürlük həbs cəzası alan Nizami Nağıyevin atası Adil Nağıyevin "Yeni Müsavat"a müsahibəsində açıqladığı məlumatlar rezonans doğurub. YAP-ın qurucularından biri, Abşeronun sabiq icra başçısı olmuş Adil Nağıyev deyib ki, oğlunun həbsindən ötən 18 il ərzində inkar mövqeyində dayanıb, oğlunun günahsızlığını hər addımında dilə gətirib.**



# Akademik Ziya Bünyadovun mübhəm ölüm işi - cinayət dosyesi

## Sabiq icra başçısının 21 il əvvəlki dəhşətli cinayət haqda fikirləri geniş rezonans doğurdu; məhkəmə arxivlərindəki hökm və qərarlar "nə deyir"

**İndi isə Adil Nağıyev tamam başqa mövqe sərgiləyir və bunun səbəbini belə izah edir.**

**Müsahibəsindən sitat:**

"Bəli, heç yanda açıb-eləməmişəm, heç kəsə deməmişəm. İndi kim nə deyir-desin. Deyəcəklər Adilə kimsə təzyiq elədi. Mənə heç kəs təzyiq edə bilməz. Mən elə şəxsiyyətəm ki, təzyiqi qəbul etmirəm, heç kəsdən də qorxmuram, çəkinmirəm. Sadəcə olaraq, ürəyim əməliyyat olunduğuna görə, öləcəyəm deyə, qoy açılsın. Niyə sirr olaraq qalsın ki? Bəzi adamlar da bu faktdan istifadə edirlər. Guya mənə canları yanır. Yalandır. Üzümə irişirlər ki, sən oğlunu... Bu, həqiqətdir. Onsuz da hökumət bunu bilir, desəm də, deməsəm də. Ziya Bünyadovun qətlinin ildönümü yaxınlaşdığına görə mən özümə borc bildim ki, sizin redaksiyaya gəlim, bunları deyim".

**81 yaşlı YAP-çı "oğlunuzun günahını etiraf edirsiniz" sualına** "Bəli. Əvvəllər etiraf etməmişəm, amma indi etiraf edirəm. Ziya Bünyadovun qətlinin təşkilatçısı Tarıyel Ramazanov və Cavanşir Aslanovdur. Onlar bu işi təşkil edib, mənim də oğlumu təhrik ediblər" cavabını verir. Mərhum akademikin həyat yoldaşı Tahirə xanımın onun oğlunu bağışladığını dilə gətirərək prezidentdən oğlu üçün əfv diləyir.

Adil Nağıyevin bu açıqlamaları iş üzrə aparılan məhkəmə istintaqına, o dövrdə mətbuatda dərc olunanlara bir daha nəzər salmamızı şərtləndirdi.

### 17 il əvvəl çıxarılmış hökmdə nə yazılıb?

Nizami Adil oğlu Nağıyev və qeyriləri Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin (indiki Bakı Ağır Cinayətlər Məhkəməsi - E.M.) 21 fevral 2001-ci il tarixli hökmü ilə azadlıqdan məhrum ediliblər.

Hökmə əsasən Adil Nağıyev CM-in 189-ci (telefon xətlərinə qanunsuz daxil olmaqla danışıqlar aparma), 218-ci (cinayətkar birlik (təşkilat) yaratma), 228 -ci (qanunsuz olaraq odlu silah əldə etmə, gəzdirmə) 277-ci (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 232-ci (odlu silah, döyüş sursatı hədə-qorxu ilə tələb etmə) maddələrində nəzərdə tutulan cinayətləri törətməkdə təqsirli bilinib və ömürlük azadıqdan məhrum olunub.

Hökmlə Mahir Nurhüseyn oğlu Zeynalov, Xanlar Cabbar oğlu Cabbarov, Maarif İdris oğlu Əliyev, Rövşən Malik oğlu Həsənov, Qədir Bahaddin oğlu Abbasov və Rizvan Nurməmməd oğlu Məmmədov CM-in müxtəlif maddələri ilə təqsirli biliniblər. Mahir Zeynalov ömürlük, digərləri isə müxtəlif müddətə azadlıqdan məhrum



etmə cəzasına məhkum olunublar.

### "Vilayəti Əl-Fərih Hizbullah" adlı cinayətkar birlik...

Hökmə əsasən Nizami Nağıyev, Mahir Zeynalov, Xanlar Cabbarov, Maarif Əliyev, Rövşən Həsənov, Qədir Abbasov, Rizvan Məmmədov, Qalib Babayev Tariyel Ramiz oğlu Ramazanov istintaqa məlum olmayan, özlərini İran İslam Respublikası vətəndaşlan kimi təqdim edən "Məhəmməd" və "Nəsrullah" adlı şəxslərin 1993-cü ildə Azərbaycanda, o cümlədən Bakı şəhərində İslam dininin müdafiəsi pərdəsi altında ağır və xüsusilə ağır cinayətlər törədilməsi məqsədi ilə yaratdıqları "Vilayəti Əl-Fərih Hizbullah" adlı cinayətkar birliyə qəbul olunublar. 1993-cü ildən 2000-ci ilin oktyabrınadək orada iştirak ediblər.

### Ev, silah sursat alıb cinayətə hazırlıq görüblər

Hökmdən belə aydın olur ki, Nizami Nağıyev, Mahir Zeynalov, Qalib Babayev və birliyin digər üzvü Cavanşir Aslanov Tariyel Ramazanovun göstərişi ilə Cəlilabad rayonu ərazisindən qanunsuz olaraq İrana keçiblər. Tehran şəhəri yaxınlığında yerləşən mərkəzdə 3 ay müddətində əlbəyaxa, küçə və kənd şəraitində döyüşlər, gizli müşahidə və sair təlimlər keçiblər. Oradan qayıdandan sonra isə Tariyel Ramazanov Nizami Nağıyevə 32 min dollar verib və o, Bakı şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 85/259 "a" nömrəli evi alıb. Sonradan həmin evin zirzəmisində cinayətkar birliyin istifadəsi üçün gətiriləcək silahların saxlanması məqsədilə quyu qazdırıb. 1996-cı ilin martında Cavanşir Aslanovla birlikdə Tariyel Ramazanovun göstərişi ilə əldə etdiyi 2 avtomat, 1 pulemyot, 5 ədəd müxtəlif markalı tapança, 3 ədəd səsboğucu qurğu, bir ədəd əl qumbarası və müxtəlif çaplı patronları daşıyıb həmin evə aparıb. Həmin silah-sursatı Tariyel Ramazanov, Mahir Zeynalov, Qalib Babayev və Maarif Əliyevlə birlikdə zirzəmidə qazılmış quyuda gizlədərək saxlayıb.

### Ziya Bünyadovun xidməti, siyasi fəaliyyətinə son qoymaq qərarlaşdırılıb

Hökmə görə dəstə üzvləri 1997-ci ilin yanvarında Bakıda yığıncaq keçiriblər. Yığıncaqda Nizami Nağıyev, Cavanşir Aslanov, Mahir Zeynalov, Qalib Babayev, Tariyel Ramazanov, "Nəsrullah" adlı şəxs iştirak edib və akademik Ziya Bünyadovun xidməti, siyasi fəaliyyətinə son qoymaq qərarlaşdırılıb. Qətlin həyata keçirilməsi planı qurulub, hər birinin rolunu öz aralarında bölüşdürüblər. Yığıncaqda akademikin İran müsteyidləri tərəfindən ölümünə "fətva" verildiyi vuğrulanıb. Bildirilib ki, Ziya Bünyadov İslam tarixinin tərcüməsində guya kobud səhvlərə yol verib.

### Akademiki 2 qatil qrupu izləyib

1997-ci il yanvarın axırları - fevralın əvvəllərində Nizami Nağıyev, Cavanşir Aslanov və Tariyel Ramazanov Ziya Bünyadovun yaşadığı evin yerləşdiyi ərazini, giriş-çıxış yollarını öyrəniblər. Mahir Zeynalov və Qalib Babayev isə qeyrilərinin köməkliyi ilə Ziya Bünyadovu və xidməti avtomobilini gizli müşahidə etməklə onun hərəkət sxemini tərtib ediblər. 21 fevral 1997-ci il 16 radələrində 2 qrupa ayrılıblar. Tapança-pulemyotla silahlanmış Tariyel Ramazanov və Cavanşir Aslanov akademik Ziya Bünyadovun evə qayıtma vaxtını mobil telefon vasitəsilə 2-ci qrupa məlumat verib. Nizami Nağıyev bıçaqla, Qalib Babayev isə tapança ilə silahlanıb Mahir Zeynalovla birlikdə avtomaşınla akademik Ziya Bünyadovun yaşadığı binanın yaxınlığında növbəti zəngi gözləyiblər.

### Qatil akademikə 5 bıçaq vurub, digəri də özünü çatdırıb, tapançadan atəş açıb

Axşamüstü 6 radələrində Tariyel Ramazanov akademik Ziya Bünyadovun evinə gəlməsi barədə Mahir Zeynalova məlumat verib. O, kənar şəxslər barədə işarə vermək məqsədilə avtomaşında qalıb, Qalib Babayev binanın tinində, Nizami Nağıyev isə 3-cü girişin qarşısında mövqe tutublar. Akademik Ziya Bünyadovun mənzilinə tək getməsi barədə Qalib Babayevin işarəsindən sonra Nizami Nağıyev binanın 3-cü girişinə daxil olaraq gözləyib. 1-ci və 2-ci mərtəbələrin arasındakı meydançada Ziya Bünyadovun arxa tərəfinə keçib və ona sağ və sol qabırğaaltı, qarın nahiyələrinə, sol əlin arxa bayır səthinə 5 dəfə ardıcıl zərbə vurub. Həmin vaxt hadisə yerinə Qalib Babayev də özünü çatdırıb və "Makarov" markalı səsboğucusu olan tapançadan Ziya Bünyadovun sifətinin sağ yanaq nahiyəsinə və boynuna atəş açıb. Akademikin həyatına son qoyan hər iki şəxs Mahir Zeynalovla birgə avtomobillə hadisə yerindən qaçıblar.

### Qətldən 1 ay 3 gün sonra sərhədi keçəndə dəstə üzvləri sərhədçilərlə toqquşub

24 mart 1997-ci ildə Nizami Nağıyev, Mahir Zeynalov, Tariyel Ramazanov, Qalib Babayev, Cavanşir Aslanov və Xanlar Cabbarov Vüsal Nəzərovun vasitəçiliyi ilə gizli yolla İrana keçmək istəyiblər. Həmin vaxt sərhəd zastavasının əsgəri Təyyar Ağakərim oğlu Ələkbərovu rüşvət verməklə ələ alıblar. O da öz növbəsində növbədə olan əsgər Fuad Cümşüd oğlu Məmmədovu sərhəd qaydalarını pozmağa təhrik edib. Dəstə üzvləri əsgərlərlə birgə sərhəd istiqamətində hərəkət edərkən xidmətdə olan digər əsgərlər Rasif Niyazi oğlu Baxışov və Rauf Qasıməli oğlu Cəfərova müqavimət göstəriblər. Onlara basqın edib Təyyar Ələkbərovun xidməti avtomat silahını əlindən alıblar. Həmin vaxt Rauf Cəfərovun silah tətbiq etməsi nəticəsində Qalib Babayev ölüb, sıravi Rasif Baxışov ağır dərəcəli bədən xəsarəti alıb. Nizami Nağıyev, Mahir Zeynalov, Tariyel Ramazanov, Xanlar Cabbarov və Cavanşir Aslanov isə hadisə yerindən qaçaraq İran ərazisinə keçiblər.

### Nizami Nağıyev məhkəmədən bəraət istəmişdi

2000-ci ildə həbs olunandan sonra Nizami Nağıyev və digərləri məhkəmə qarşısına çıxarılıb müddətli və müddətsiz azadlıqdan məhrum etmə cəzasına məhkum olunublar. Hökmdən Nizami Nağıyev, digərləri və müdafiəçiləri apelyasiya şikayətləri verərək bəraət hökmü çıxarılmasını xahiş etmişdilər. Apelyasiya Məhkəməsinin cinayət və inzibati hüquqpozmalara dair işlər üzrə məhkəmə kollegiyasının 24 iyul 2001-ci il tarixli qərarı ilə Nizami Nağıyev və müdafiəçisinin apelyasiya şikayətləri təmin edilməmişdi. Hökm ona aid hissədə dəyişdirilmədən saxlanılmışdı.

**N.Nağıyev o dövrdə Ali Məhkəməyə müraciət etməmişdi. Apelyasiya Məhkəməsi onun barəsində hökmü qüvvədə saxlayarkən birinci instansiya məhkəməsinin hökmündə yer alan sübutlara istinad etmişdi. Apelyasiya instansiyasının qərarından oxuyuruq:**

"Belə ki, məhkəmə baxışı zamanı ona elan edilmiş ittihamda özünü təqsirli bilməyib, ifadə verməkdən imtina etdiyindən Nağıyev Nizami Adil oğlunun ibtidai istintaq zamanı videoçəkiliş aparılmaqla verdiyi ifadələri və ifadəsi yerində yoxlanılarkən göstərdiyi məlumatlar məhkəmə baxışında tədqiq edildi. Nizami Nağıyev məhkəməyədək icraat zamanı ifadələrində və bu ifadələri yerində yoxlanılarkən, akademik Ziya Bünyadovun qətlinin hazırlığı və icrası ilə bağlı məlumatlar verib, cinayətin digər iştirakçıları ilə birlikdə Bakı şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 85/259 "a" nömrəli konspirativ evdə odlu silah və döyüş sursatlarının gizlədildiyini izah edib. Həmin evdə Tariyel Ramazanov, Qalib Babayev, Mahir Zeynalov və Cavanşir Aslanovla birlikdə akademik Ziya Bünyadovun qətlinin planını hazırladıqlarını bildirib. 21 fevral 1997-ci ildə Tariyel Ramazanovun Cavanşir Aslanovla birlikdə Ziya Bünyadovu izlədikləri istiqaməti göstərib, Ziya Bünyadovu Qalib Babayevlə birlikdə qətlə yetirmələrini, bu zaman Mahir Zeynalovun yaxınlığdakı avtomobildə olması, özünün Ziya Bünyadova bıçaqla zərbələr endirməsini etiraf edib. İranlı "Nəsrulla"dan eşitdiyinə görə Ziya Bünyadovun barəsində "fətva"nın "müştehidlər" tərəfindən verilməsini, Ziya Bünyadovun qətlə yetirilməsində digər dəstə üzvü Xanlar Cabbarovun da iştirak etməsini bildirib".

**(davamı sabahkı sayımızda)**

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

**Üç gün sonra Fazil Məmmədovun vergilər naziri postundan uzaqlaşdırılmasının 2-ci ayı tamamlanır. Ötən müddət ərzində Fazil Məmmədovun taleyinə aydınlıq gətirilməyib, onun həbs ediləcəyi və ya yaxın ətrafının iddia etdiyi kimi, səfir göndəriləcəyi haqda deyilənlər də söz-söhbətdən o tərəfə keçməyib.**

# Fazil Məmmədovun talançı komandasının sonu-bacısı oğlu da işdən qovuldu

## Vergilər Nazirliyində "paket" sistemi ləğv olunur; vergi əməkdaşlarının sahibkarları himayə etməsi yasaqlanır



Fazil Məmmədov vəzifədən çıxarılandan sonra Vergilər Nazirliyində "təmizləmə əməliyyatı"na başlanıb. Uzun illərdən bəri vergi orqanlarında kök salmış, sahibkarların qəniminə çevrilən korrupsioner şəbəkənin iş başından uzaqlaşdırılması üçün başladılan proses davam edir.

Fevralın 2-də isə Fazil Məmmədovun bacısı oğlu, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun oğlu Vergilər Nazirliyində tutduğu vəzifədən azad olunub. Elnur İsgəndərovun öz ərizəsi ilə vəzifəsini tərk etdiyi bildirilir.(missiya.az)

Mayor (kiçik vergi xidməti müşaviri) rütbəsi verilən Elnur İsgəndərov Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal Gəlirlər Departamentinin Bəyannamələr idarəsində direktor müavini vəzifəsində çalışırdı. Elnur İsgəndərov həmin vəzifəyə adı Binəqədi Rayon İcra Hakimiyyətində korrupsiya işlərində hallanandan sonra keçirilmişdi. 2016-cı ilin iyun ayında sabiq vergilər naziri Fazil Məmmədov bacısı oğlunu direktor müavini vəzifəsinə təyin etmişdi.

Vergilər Nazirliyinin fəaliyyətində və kadr heyətində ciddi dəyişikliklər davam edəcək. Bu barədə nazirliyə yaxın mənbələr xəbər verir. Nazir Mikayıl Cabbarov nazirliyi və onun strukturlarını qısa müddətdə mafiyalardan tamamilə təmizləmək və fəaliyyətini qanun çərçivəsinə qaytarmaqda qərarlıdır. Məlum olduğu kimi, bu istiqamətdə çox mühüm addımlar atılıb və atılmaqda davam edir. Bu addımlardan biri də Vergilər Nazirliyinin biznes sektorunda yoxlamaları tamamilə dayandırmasıdır. "Trend"ə hökumətdəki mənbələrdən daxil olan məlumatda bildirilib ki, yoxlamaların dayandırılması nazirlikdəki rəhbər dəyişikliyindən sonra aparılan struktur və kadr islahatları ilə bağlıdır. Belə ki, kadr dəyişikliyi vergi yoxlamalarını aparan şəxslərə də təsir edib. **"Hazırda vergi yoxlamalarına nəzarət nazirin müavini İlkin Vəliyevə keçib. Bununla belə, kurator olmasına baxmayaraq, heç bir yoxlama aparılmır. Mənbə bunu yalnız kadr dəyişikliyi ilə deyil, həm də yeni nazirin vergi yoxlamalarının aparılması prosesində müəyyən dəyişikliklər edə bilməsi ilə izah edir"** - deyə, məlumatda bildirilirdi. "AzPolitika.info"nu məlumatlandıran mənbə də bu xəbəri təsdiqləyərək, nazir Mikayıl Cabbarovun nazirliyin işində tam şəffaflıq yaradılana və etibarlı kadr heyəti formalaşdırılana qədər yoxlamaları dayandırmaq haqda tapşırıq verdiyini bildirir. Mənbənin sözlərinə görə, Mikayıl Cabbarov yeni vəzifəsinə təyinat aldıqdan sonra nazirlik işçiləri ilə fərdi və kollektiv görüşlərində Vergilər Nazirliyinin cəmiyyətdəki imicini müsbətə doğru dəyişməyi qarşıya əsas vəzifələrdən biri kimi qoyub. Nazir çox aydın mesaj verir: Kim yeni qaydalarla işləməyə razıdırsa, işinin başında qalacaq, əks halda, yaxşı yol!

Bəs "yeni qaydalar" dedikdə nə nəzərdə tutulur? Məsələn, bundan sonra Vergilər Nazirliyində "paket" sistemi olmayacaq! Həmçinin bundan sonra vergi əməkdaşlarının "dolanmaq" üçün bir-iki sahibkara himayədarlıq etməsinə, onların vergi yükünü azaltmasına icazə verilməyəcək. Əvəzində işçilərin qanuni əmək haqları və mükafatlarında zamanla artımlar həyata keçiriləcək. Vergidə qeyri-rəsmi büdcənin formalaşdırılması praktikası tamamilə aradan qaldırılacaq, bütün vergilər qanun əsasında toplanaraq, dövlət büdcəsinə keçiriləcək. Bunun üçün vergi əməkdaşlarının sahibkarlarla şəffaf münasibətlər qurmasını təmin edən mexanizmlər hazırlanıb həyata keçiriləcək. Hazırda bu mexanizmin yaradılması üzərində iş gedir. Bəzi bilgilərə görə, bununla bağlı həm Avropa ölkələrinin, həm də qonşu Gürcüstanın təcrübəsi öyrənilir. Ona görə də vergi əməkdaşlarına hələlik yoxlama aparmaq qadağan edilib. İş adamlarının, məmurların nəzarəti altında olan biznes subyektlərinin hansısa səbəbdən vergidən yayındırılmasına və ya əlavə "yüklənməsinə" dözüm nümayiş etdirilməyəcəyi də nazirlik əməkdaşlarının diqqətinə çatdırılıb. **"Mikayıl Cabbarovun vergilər naziri təyin olunduqdan sonra ilk olaraq yüksək vəzifəli şəxslərin qohumlarını, yaxınlarını Vergilər Nazirliyində tutduqları vəzifələrdən uzaqlaşdırması da əslində hamıya bir mesaj oldu"** - mənbə bildirir. Məlumata görə, M.Cabbarovun Vergilər Nazirliyindəki önəmli postlardan uzaqlaşdırdığı və adları cəmiyyətə açıqlanan 64 nəfər illərdir sahibkarlara zülm edən dəstənin özəyini təşkil edənlər olub. Bu siyahının cəmiyyətə məlum olmayan qismi də var və "təmizləmə" prosesi davam edir. **"Vəzifədən uzaqlaşdırılanlar arasında çox yüksək vəzifəli şəxslər, o cümlədən Prezident Administrasiyasından "tapşırılanlar" da olub, lakin nazir kadr məsələsində prinsipial tutumunu davam etdirir"** - mənbə əlavə edir.

Bu arada Fazil Məmmədovun bahalı avtomobillərini satmağa başlaması xəbəri də yayılıb. Bakupost-a daxil olan məlumata görə, keçmiş məmur-oliqarx bu avtomobillərini bazar qiymətindən xeyli ucuz təklif edir. Bunun səbəbi isə adına olan əmlakları təcili surətdə azaltmaq istəməsidir. Qeyd olunur ki, avtomobillərin satışı ilə sabiq nazirin bacısı oğlu məşğul olur. Məlumatlı mənbənin sözlərinə görə, keçmiş nazir təkcə avtomobillərini deyil, bir neçə mülkünü də satışa çıxarıb.

Xatırladaq ki, F.Məmmədov işdən azad olunandan sonra mətbuatda Vergilər Nazirliyində korrupsiya hallarının aşkarlanması, buna görə də keçmiş nazirin istintaqa cəlb edilmək ehtimalı barədə xəbərlər yayılıb.

❑ **E.HÜSEYNOV**
❑ **"Yeni Müsavat"**

# Gürcüstanda benzin ucuzlaşdı, bəs niyə bizdə də...

## **Ekspert:** "Gürcüstanda benzin bazarı tam sərbəstdir"



**Xəbər verdiyimiz kimi, Gürcüstanda benzin və dizel yanacağının qiyməti aşağı düşüb.**

Gürcüstanın Neft Məhsulları İdxalçıları Birliyinin məlumatına görə, yanvar ayında brend yanacaqdoldurma məntəqələrində yanacağın qiyməti orta hesabla 2-5 tetri (0,008 - 0,020 dollar) arasında ucuzlaşıb.(APA)

Yanacağa olan qiymətin ucuzlaşması gürcü larisinin dollara qarşı möhkəmlənməsi ilə əlaqələndirilir.

Onu da qeyd edək ki, hazırda Gürcüstanda benzinin qiyməti 2,45-2,55 lari (0,98-1,02 dollar), dizelin qiyməti isə 2,25-2,42 lari (0,90-0,96 dollar) təşkil edir.

**İqtisadçı-ekspert Natiq Cəfərlinin dediyinə görə, Gürcüstanda benzin bazarı tam sərbəstləşib:** "Bu bazara dövlətin müdaxiləsi yoxdur, qiymətləri bazar müəyyənləşdirir. Dövlət ancaq ki, aksizlər və vergilərlə tənzimləyici rolunu oynayır. Gürcüstanın benzin bazarında 12 şirkət tam azad rəqabət şəraitində fəaliyyət göstərir. Rəqabət olduğuna görə neftin qiyməti, larinin məzənnəsindəki dəyişikliklərə çevik şəkildə uyğunlaşma gedir. Larinin dollara qarşı möhkəmlənməsi isə dünyada gedən trendlə bağlıdır. Dünyada uzun illərdən bəri ilk dəfədir ki, dollar indeksi 90 bənddən aşağı düşüb. Son bir ildə dollar 15 faizə yaxın dəyər itirib. Bunun nəticəsində lari dollara qarşı möhkəmlənir, dollarla alınan benzin da avtomatik ucuzlaşır".

**İqtisadçı bildirir ki, Gürcüstandan fərqli olaraq, Azərbaycanda benzinin qiymətini dövlət tənzimləyir:** "Azərbaycanda qiymətləri Tarif Şurası müəyyənləşdirir. Yalnız super və premium markalı benzinlərin qiyməti sərbəst buraxılıb. Lakin burada da idxalı yalnız bir şirkət həyata keçirir, rəqabət mühiti yoxdur deyə qiymətlərdə hansısa ucuzlaşma olmur. Sərbəstləşəndən bəri premium markalı benzinin qiyməti 95 qəpikdən 1 manat 25 qəpiyə yüksəlib. Sərbəst bazar olsaydı, qiymətlərdə dövri olaraq dəyişikliklər görərdik".

**Onu da qeyd edək ki, dollar bütün dünyada dəyər itirsə də, Azərbaycanda manatın möhkəmlənməsi müşahidə olunmur. N.Cəfərlinin fikrincə, bu, manatın məzənnəsinin hökumət tərəfindən tənzimlənməsindən irəli gəlir:** "Düzdür, Mərkəzi Bank birmənalı şəkildə bəyan edir ki, bizdə üzən məzənnə rejimidir. Lakin real fakt budur ki, bizdə heç zaman üzən məzənnə olmayıb. Hökumət hər zaman məzənnəni özü tənzimləyib. Artıq dünyanın nüfuzlu reytinq agentlikləri də Azərbaycan hökumətinin məzənnəyə təsir göstərdiyini açıqlayırlar. Hazırkı məzənnə hökumətə sərf edən məzənnədir. Büdcənin proqnozlaşması bu məzənnə ilə aparılıb. Buna görə də ən azı bu ilin sonunadək hökumətin məzənnədə ciddi dəyişikliyə yol verməyəcəyi aydın məsələdir".

**İqtisadçı-ekspertin sözlərinə görə, dollar-manat dəngəsi sabit saxlansa da, bu sabitlik manat-avro məzənnəsinə təsir göstərir:** "Dollar ucuzlaşmadığı üçün bunun fərqini - çarpaz məzənnə fərqini avronun üzərinə gəlirlər, avro bahalaşır. Bunun nəticəsində isə avrozonadan gətirilən məhsullar bahalaşır".

❑ **DÜNYA,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 25 (6914) 2 fevral 2018



# Bizim iş

Zamin HACI
zaminhaci@gmail.com

"Yaşamak şakaya gelmez,
büyük bir ciddiyetle yaşayacaksın
bir sincap gibi mesela,
yani, yaşamanın dışında ve ötesinde hiçbir şey beklemeden,
yani bütün işin gücün yaşamak olacak".

*(Nazim Hikmət)*

**Bu gün yanılmıramsa ölkəmizdə Gənclər günü kimi qeyd olunur. Həmin möhtəşəm bayram münasibətilə Narxoz, Pulxoz, Kalxoz, Narkoz və sairə qozlu-mozlu-tozlu-sazlı-sözlü universitetlərimizi bitirib hansısa debilin supermarketində rəfəbaxan vəzifəsində 250 manat maaş alan, kubalı boksçu Sotomayorun əlindəki manatlara ağzının suyunu və gözünün yaşını axıdan, həmçinin hər gün yuxudan duranda valideynlərini "Məni burda dünyaya gətirən tünbətünlər" deyə yad edən, at ətindən dönər, it ətindən peraşki yeyərək hər an xaricə qaçmağa hazırlaşan gənclərimizi təbrik edirəm. Şair demişkən, bu da belə bir ömürdür yaşadım. Hamı məmur qohumu olmaz ki. Bəxt lazımdır. Gərək insanın ağ tükü olsun. Başında. Yəni dövlətçilik yolunda saç ağartsın. Bunlar da hamıya qismət olmur.**

Hər halda, bayramdır, dövlət səviyyəsində verilən bayramın dişinə baxmazlar. Kiçik çillənin sümüyə işləyən soyuq vaxtında bu nə gənclik bayramıdır, kimin ağlına gəlib məhz bunu bu vaxta salsın - gəlin bu barədə də düşünməyək. Gənclik yaz, inkişaf, oyanış, tərəqqi, nə bilim, dirçəliş, gül-çiçəklə assosiasiya olunur, ancaq geridə qalmış dövlətlərdə! Bizdə hər zaman gənclər üçün bayramdır. Bu temada yaxşı ata sözlərimiz də vardır: "Gəncə yel ver, əlinə bel ver", "Gəncin başında palıd ağacı bitməz", "Ölüsü olan bir gün ağlar, Gənci olan hər gün". Həqiqətən gəncləri indiki zamanədə saxlamaq olduqca çətindir. Bunun qəlyan xərci var, dönərini al, Topazını ödə, nə bilim, qotazlı kəkilinə dotasiya ayır... Əməllicə dövlət investisiyaları tələb edir.

Məhz bu baxımdan bizim Azərbaycanımızda gənclər üçün dövlət siyasəti hərtərəfli düşünülmüşdür. Dünən Bakıdan Almaniyaya deportasiya edilən bir alman getməmək üçün qarnını bıçaqla doğramışdır. Deyir, Frankfurtda dilənçilik artıb, Hamburqda camaat suya tullanıb intihar edir, məni hara göndərirsiniz? Mən Bakıda qalıb ölkənizin inkişafını öz gözlərimlə görmək istəyirəm. Biz xahiş edərdik hüquq-mühafizə orqanları o almanın məsələsinə təzədən baxsınlar, mümkünsə deportasiya edilməsin. Ümumiyyətlə, alman qaçqınlar üçün də Masazırda yeni binalar düşərgəsi tikməyin əsl vaxtıdır.

Bu arada Vergilər Nazirliyində də görünməz hadisə baş veribdir. Təzə nazir köhnə nazirin bacısı oğlu və eyni zamanda Binəqədi icra hakimin oğlu sayılan tipi işdən qovmuşdur. Bah-bah. Vah-vah. Ax-uf. Məncə bu, ölkəmizdə qohumbazlıq və traybalizm *(heç bilmirəm mənası nədir, savadlı görünmək üçün yazdım)* siyasəti sahəsində üzə çıxarılan ilk fakt olmuşdur. Başqa harda kiminsə öz qohumunu tabeliyində dövlət qulluğuna götürməsi halına rast gəlinmişdir? Almaniyada yaşamırıq ki.

Sözgəlişi, bu yaxında İtaliya tarixi haqda oxuyurdum, orda "Koza Nostra"nın tərcüməsinin "Bizim iş" olmasını gördüm. Çox sevindim. Necə gözəl tapıntıdır. Az qala bizim müxalifətin vaxtilə yaratdığı "Bizim Azərbaycan" blokunun adını xatırladır. Hamısı mafioz adamlar idi, yaxşı oldu elə hakimiyyətə gələ bilmədilər, əks halda, bəlkə indi hamımız başımızı götürüb xaricə qaçmışdıq. Mənim yadıma gəlir, AXC-Müsavat cütlüyünün hakimiyyəti əsrində bizim heç gənclər günü bayramımız da qeyd olunmurdu. Nə gəncə hörmət qoyulurdu, nə ağsaqqal-ağbirçəyə. Uşaqlar qorxusundan altını batırırdı. Gecələr gəzməyə çıxa bilmirdik. Getsin o günlər gəlməsin. Gələ də bilməz, ürəyinizi buz kimi saxlayın, çünki biz hazırda ictimai-siyasi fəaliyyətimizi möhkəm təməllər üzərində qururuq. İndi bizdə siyasət alqı-satqı predmeti deyildir!

Bəlkə də təzə qərarla alğı-satqı yazmalıydım. Bunu dəqiqləşdirməliyəm.




# Kreml Qafqazı yenidən qarışdırır - separatizmə dəstək

## Rusiya Gürcüstan ərazilərinin işğalını rəsmiləşdirmək yönündə daha bir addım atdı - Bakıya da ismarış? Tiflisin reaksiyası gecikmədi: "Bu, fitnəkar hərəkətlər..."

**Qərb qonşumuz və strateji tərəfdaşımız Gürcüstanın Rusiya qazından birdəfəlik imtina etməsi barədə xəbər vermişdik. "Yeni Müsavat" xatırladır ki, gürcü iqtisadiyyat nazirinin müavini iki gün öncə yanacağın bu növünə ölkəsinin tələbatını bütünlüklə Azərbaycanın ödəyəcəyini söyləyib.**

Sözsüz ki, Tiflisin belə bir qərar verməsində siyasi motiv da var. Çünki iqtisadi, energetik asılılıq (bağlılıq) siyasi asılılıq (bağlılıq) yaradır. Avropanın illərdir Azərbaycan və digər ölkələr hesabına Rusiyanın qaz monopoliyasından qurtulmağa, heç olmasa, bu asılılığı azaltmağa çalışması heç də boşuna deyil.

Moskva və Tiflis arasında isə üstəlik, başqa - qat-qat qəliz, bəlkə də əbədi çəkəcək problem var: Rusiya Gürcüstanın qanuni əraziləri olan Abxaziya və Cənubi Osetiyanı 2008-ci ilin avqustunda rəsmən işğal edib - bu qondarma qurumların müstəqilliyini tanımaq adı ilə. Həmin ildən də iki ölkə arasında diplomatik, iqtisadi münasibətlər kəsilib. O vaxtdan tərəflər arasında təmas yalnız Gürcüstan tərəfdən baş nazirin Rusiya ilə danışıqlar üzrə xüsusi nümayəndəsi Zurab Abaşidze və Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin arasında ikitərəfli formatla ara-sıra özünü büruzə verir.

*****

Yeri gəlmişkən, işğalçı Ermənistana işğal altındakı Abxaziyadan quru dəhlizin *(köhnə dəmir yolunun)* açılması məsələsi də bu formatda müzakirə edilir(di). Bu dəmir yolunun işə düşməsi ilə Ermənistan öz əsas hərbi müttəfiqi Rusiya ilə quru əlaqəsi əldə eləmiş olacaq və xüsusən də Qarabağda hərbi əməliyyatların qızışacağı təqdirdə mühüm önəm daşıyacaq.

O üzdən təbii ki, məsələ həm İrəvan, həm də Bakının diqqətindədir. Lakin yaxşı ki, dəhlizin açılması üçün Moskva imzalanacaq anlaşmaya Abxaziya və Cənubi Osetiyadakı "hökumətlərin" də imza atmasını istəyir. Tiflis isə buna qarşıdır. Çünki o halda bu, separatçı rejimlərin "müstəqilliyini" tanımaq anlamına gələcək. Nəticə etibarilə danışıqlar yekunlaşa bilmir. Əlbəttə ki, rəsmi Tiflis Azərbaycan və Türkiyə faktorlarını da yəqin ki, ciddiyə alır.

*****

Maraqlıdır ki, Tiflis Rusiya qazından tam imtina edəndən cəmi bir gün sonra - yanvarın 31-də Rusiya parlamenti Gürcüstanın qanuni ərazilərinin işğalını rəsmiləşdirmək yönündə növbəti təxribatçı addım atıb: Federasiya Şurası "Cənubi Osetiya hərbi birləşmələrinin Rusiya ordusu tərkibinə daxil olması qaydaları haqda" ikitərəfli sazişi ratifikasiya edib. Bu da gözlənildiyi kimi, Gürcüstanın hiddətinə səbəb olub.

**Belə ki, "Yeni Müsavat"ın apsny.ge gürcü qaynağına istinadən verdiyi məlumata görə, Abaşidze həm bu, həm də bütövlükdə ərazilərin işğalı ilə digər məsələlər barədə dünən Cenevrədə Karasinlə keçirdiyi görüşü zamanı ona suallar ünvanlayıb, lakin cavablar ala bilməyib.**

"Bildiyiniz kimi, bizim format işğal altındakı ərazilərlə bağlı məsələləri özündə ehtiva eləmir. Ancaq buna baxmayaraq, görüşün əvvəlində mən diqqəti son vaxtlar Abxaziya və Cənubi Osetiyada gedən fitnəkar proseslərə yönəltdim. O cümlədən Tsinxval regionundakı qanunsuz silahlı birləşmələrin Rusiya ordusu tərkibinə daxil edilməsi barədə anlaşmanın Rusiya Duması tərəfindən ratifikasiya edilməsinə yönəltdim. Həmçinin diqqəti Axalqoridə qanunsuz gömrük məntəqəsinin açılmasına çəkdim", - deyə gürcü diplomat qeyd edib.

*****

Qeyd edək ki, Rusiyanın Cənubi Osetiyadakı separatçı və qanunsuz hərbi birləşmələrlə bağlı son qərarı bir daha Abxaziya və Cənubi Osetiyanın "müstəqilliyi"nin formal olduğunu, Moskvanın Gürcüstan ərazisinin işğalını davam etdirəcəyinin nümayiş etdirməklə yanaşı, Rusiya ilə Gürcüstan arasında minimal təmas imkanlarına zərbədir. Eyni zamanda bu, Azərbaycana da özünəməxsus bir siqnaldır: o mənada ki, nə qədər ki, Vladimir Putin hakimiyyətdədir, Rusiya nə bölgədən, nə də işğal elədiyi ərazilərdən hərbi mövcudluğunu əskik etməyəcək, əksinə, daha da gücləndirəcək.

Tiflis-Moskva münasibətlərində artan gərginlik isə əslində Azərbaycanın xeyrinə, Ermənistanın ziyanınadır. Çünki bu halda Ermənistana işğal altındakı ərazilərdən Rusiyaya dəhliz açmaq və blokada rejimini yumşaltmaq ümidləri daha da zəifləmiş olur. Yada salaq ki, sözügedən dəhlizin bərpası üçün ötən ilin oktyabrında Ermənistanın baş naziri Karen Karapetyan, dekabrda isə prezident Serj Sərkisyan Tiflisə çoxgünlük səfərlər eləmiş, lakin nəticə əldə edə bilməmişdilər.

Ermənistan nəticəyə nail olmaq üçün hətta Gürcüstanı özünə xas, ənənəvi üsullarla təhdid eləməkdən belə çəkinmir. Ermənilərin kompakt yaşadığı Cavaxetiya bölgəsində gürcü dövləti əleyhinə son vaxtlar artan təxribatçı hərəkətlər, burada hətta terrorçu ASALA-nın yerli özəyinin yaradılması haqda gələn xəbərlər, habelə gürcü kilsəsini erməniləşdirmək yönündə cəhdlər və bu qəbildən digər hərəkətlər qənaətimizə şübhə yeri qoymur.

**Yaranmış vəziyyət sövq-təbii Tiflisə bir daha dost-düşmənin ünvanını göstərir, onun Azərbaycan və Türkiyəyə ehtiyacını artırır. Hər necə olmasa, söhbət ən əvvəl Gürcüstanın milli təhlükəsizliyindən gedir...**

❑ **"Yeni Müsavat", siyasət şöbəsi**




# Rəsul Quliyevin "Elçibəy saxtakarlıqla prezident seçilib" iddiasına sərt reaksiyalar

## Sabiq prezidentin köməkçisi: "Elçibəy deyirdi ki, məni sənin pulların yıxdı, Rəsul"

**Hazırda ABŞ-da yaşayan Milli Məclisin sabiq sədri Rəsul Quliyev bu günlərdə verdiyi müsahibədə milli azadlıq hərəkatının lideri, sabiq prezident Əbülfəz Elçibəyin seçildiyi 7 iyun 1992-ci il prezident seçkisini şübhə altına alıb, seçkinin 50 faiz saxtalaşdırıldığını deyib.**

Əbülfəz Elçibəyin prezident seçildiyi dövrdə dövlət katibi işləyən **AXP sədri Pənah Hüseyn** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, seçkilərdən sonra namizədlərdən birinin seçkilərlə bağlı bu cür əsassız iddiası olmuşdu. Lakin o dövrlərdə hətta Xalq Cəbhəsinin və Elçibəyin opponentləri, Xalq Cəbhəsinin hakimiyyətə gəlməsini istəməyən xarici və daxili qüvvələr də seçkinin Azərbaycanda ilk demokratik seçki olduğunu bəyan ediblər: "Seçkinin nəticələri də, ictimai rəy də həmin seçkinin müstəqillik əldə olunandan sonra ilk demokratik seçki olduğunu göstərirdi. Rəsul Quliyev də həmin seçkinin demokratik keçirildiyini bilməmiş deyildi. Sözün doğrusu, mən güman eləmirəm ki, Rəsul Quliyev "Əbülfəz Elçibəy saxtalaşdırılmış seçkilərlə prezident seçilmişdi" kimi sərsəm açıqlama versin. Əgər həqiqətən də o cür açıqlama veribsə, bu, yalnız Rəsul Quliyevin hansısa ruhi vəziyyətindən xəbər verə bilər".

**Əbülfəz Elçibəyin köməkçisi işləmiş Oqtay Qasımov isə cebhe.info-ya açıqlamasında Rəsul Quliyevin səsləndirdiyi fikirləri cəfəngiyyat adlandırıb:** "Rəsul Quliyev oturub Amerikada ağlına gələni danışmaqda davam edir. İndi də guya Azərbaycanda siyasi hakimiyyətə gəlmək iddiasını ortaya qoyub. Hakimiyyətə iddialı olan şəxs isə təkcə keçmiş haqqında danışmamalı, gələcəklə bağlı proqramlarla çıxış etməlidir. Amma Rəsul Quliyev köhnə palan içi tökməklə, guya köhnə səhvləri, yanlışları deməklə özünü meydanda, gündəmdə tutmağa çalışır. Ümumiyyətlə, 30 ildə gedən proseslərdə iştirak edən, yaxından izləyən hər kəs bilir ki, Azərbaycanda keçirilən ən demokratik seçki 1992-ci ilin prezident seçkisi olub. O vaxt seçkilərə 7 namizəd qatılmışdı. Doğrudur, onlardan bir neçəsi sonradan Elçibəyin xeyrinə namizədliklərini geri götürüblər. Seçki prosesində isə imzatoplama kampaniyasından səsvermə gününə qədər heç bir namizədə əngəl yaradılmayıb. Rəsul Quliyevin də daxil olduğu və dəstəklədiyi cinah, Rusiyanın, İranın və həm də Ermənistanın dəstəklədiyi namizəd Nizami Süleymanov idi. Rəsul Quliyev və adamları da həmin düşərgəyə daxil idi. Nizami Süleymanov ətrafında birləşən koalisiyaya baxmayaraq 33 faiz səs toplayıb. Əbülfəz Elçibəy isə 59.4 faiz səslə prezident seçilib. Bəzi bölgələr var idi ki, Nizami Süleymanovun həmin yerlərdə yığdığı səs faizi kifayət qədər ciddi olub. Amma bu, heç bir halda Əbülfəz Elçibəyə qalib gələcək dərəcədə və mahiyyətdə olmayıb. Çünki Əbülfəz Elçibəy üçün imzatoplama kampaniyası başlayanda Azərbaycanın bütün ictimai-siyasi qurumları, məşhur aydınları Əbülfəz Elçibəyi müdafiə edirdi. Yeni Elmlər Akademiyasından tutmuş ali məktəblərə, sənaye və istehsal müəssisələrinə, zavod və fabriklərə qədər".



**Oqtay Qasımov hesab edir ki, Rəsul Quliyevin dedikləri psixoloji problemlərindən irəli gəlir:** "O zaman Əbülfəz Elçibəyin namizədliyi üçün Mərkəzi Seçki Komissiyasına verdiyi imzaların sayı 600 mindən çox idi. Artıq seçki prosesi başlayanda AXC-nin, milli-demokratik qüvvələrin namizədi Əbülfəz Elçibəyin qalib gələcəyinə heç bir şübhə yox idi. Keçirilən demokratik seçkinin nəticəsi olaraq dünyanın qabaqcıl dövlətləri ABŞ, Türkiyə və ümumiyyətlə, Qərb və Avropa Əbülfəz Elçibəyin seçildiyi seçkilərin demokratik olduğunu bəyan edib, legitimliyini tanıyıb. Yəni burada heç bir şübhəli, mübahisəli məqam yoxdur və ola da bilməz. Əgər Rəsul Quliyevin beynində bu məsələlər indi qalxıbsa, bu, artıq onun psixoloji problemidir. Rəsul Quliyev əgər həmin seçkiləri saxta hesab edirsə, onda bu suallara cavab versin: Əbülfəz Elçibəyin seçildiyi seçkilər saxta idisə, prezidentliyi legitim deyildisə, hansı haqla, hansı mənəvi dəyərlərə söykənib Elçibəyin o zamankı komandasında yer almışdın? Dövlət Neft Şirkətinin prezidenti və sonradan baş nazirin birinci müavini vəzifələrini niyə qəbul etmişdin? Rəsul Quliyev özündə olan mənəvi keyfiyyətlərin göstəricisi ilə bu sualların cavabını versin".

**O.Qasımov Elçibəyin Rəsul Quliyev haqqında dediklərini xatırladıb, diqqəti onun dövlətdən oğurladığı milyonlara yönəldib:** "Rəsul Quliyev bu cür sərsəm iddialarla xal qazanmaq istəyirsə də, onun Azərbaycana dönüşü və ya hakimiyyətə gəlməsi qeyri-mümkündür. Ola bilər ki, Rəsul Quliyev ömrünün qürub çağında yenidən doğulduğu Azərbaycana gəlsin. Amma Əbülfəz Elçibəyə çamur atmaqla bunu etmək mümkün deyil. Əksinə, Rəsul Quliyev dövlətdən oğurladıqlarını gətirib təhvil versə, bəlkə o zaman bu hakimiyyətin ona rəhmi gələr və onun geri qayıtmasına icazə verər. Rəsul Quliyev Əbülfəz Elçibəyə çamur atmaqla öz ələmində qisas aldığını düşünür. Çünki 1990-cı ildə Rəsul Quliyevə açılmış cinayət işi rəhbərlik etdiyi Neft Emalı Zavodunda yol verdiyi yeyintilərlə bağlı idi. Bu yeyinti o zaman aparılan ilkin araşdırmalara görə, 52 milyon dollar idi. Əbülfəz Elçibəyin 1998-ci ilin sonlarında bir ifadəsi var idi. Elçibəy deyirdi ki, məni sənin pulların yıxdı, Rəsul".

❑ **Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# Prezidentliyə namizəd bolluğu yaxşıdır, yoxsa...

## **Elçin Mirzəbəyli:** "Namizədlərin sayının 5 nəfərdən az olmayacağını düşünürəm"

**Rusiyada gələn ay keçiriləcək prezident seçkisində iddiaçıların sayının çox olacağı gözlənilir. Namizədlərin bolluğu Azərbaycanda da bu məsələni gündəmə gətirib.**




Məlumdur ki, oktyabrın 17-də ölkəmizdə də prezident seçkisi keçiriləcək. Həmin seçkidə iddiaçıların sayının çox olub-olmayacağı sualları doğurur. Artıq bu günə qədər 7 nəfər namizədliyini irəli sürəcəyini bəyan edib. Bu siyahının genişlənəcəyi şübhəsizdir. Bu baxımdan oktyabrdakı seçkilərdə 10-dan çox namizədin ola biləcəyini təxmin etmək olar. Lakin əsas məsələnin iddiasını irəli sürənlərdən kimlərin tələb olunan 40 min imzanı yığacağı, yaxud onlardan kimlərin Mərkəzi Seçki Komissiyası tərəfindən qeydə alınacağı ilə bağlıdır.

İstənilən ölkədəki prezident seçkilərində namizəd bolluğunun həmin ölkə üçün müsbət və ya mənfi tərəflərinin olması ilə bağlı müxtəlif fikirlər var. Demokratiya baxımından çoxları bunun vacibliyini vurğulasa da, əks fikirlər söyləyənlər də az deyil.

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini, politoloq Elçin Mirzəbəyli namizəd bolluğunu problem saymır:** "Öncə qeyd edim ki, Rusiyada və Azərbaycanda keçiriləcək prezident seçkiləri arasında paralellər aparmaq istəmirəm. İstənilən müqayisə qüsurludur. Amma bu məsələdə həm də dövlətçilik qüruru anlayışı var və bu anlayış mənim üçün hər şeydən öndə gəlir. Prezident seçkilərində namizədlərin sayının çox olmasının müsbət və mənfi tərəflərinə gəldikdə isə, onu deyə bilərəm ki, kəmiyyət bütün digər məsələlərdə olduğu kimi, burada da əsas göstərici deyil. Bununla yanaşı, namizədlərin sayının çox olmasında mənfiliklər axtarılmasını doğru saymıram. Əgər kəmiyyət və keyfiyyət üst-üstə düşərsə, o zaman bu, hər şeydən öncə seçicilərin aktivliyinə səbəb ola bilər.




Digər tərəfdən, rəqabət prosesində cəmiyyəti inkişafa aparacaq yeni ideyalar, mütərəqqi fikirlər ortaya çıxa bilər ki, bu da əhəmiyyətlidir. Seçki prosesinə sadəcə namizədlərin yarışı kimi yanaşmaq, zənnimcə, bir az bəsit münasibətdir. Seçki kampaniyası mənə görə həm də cəmiyyətin siyasi, hüquqi cəhətdən maarifləndirilməsi kampaniyasıdır. Seçki beyinlərin, siyasi texnologiyaların rəqabəti üçün geniş imkanlar açır, siyasi mədəniyyətin formalaşmasında mühüm rol oynayır. Bizim üçün bu çox vacib məsələdir. Dövlət müstəqilliyimizin yenidən bərpasının 27-ci ilinə qədəm qoymuşuq. Ultratotalitar rus-bolşevik ideologiyası yaddaşımızdan, mentalitetimizdən hələ tamamilə silinməyib. Bu baxımdan, seçki prosesi milli və bəşəri, insani dəyərlərin, sivil siyasi münasibətlərin təbliği baxımından bizim üçün çox önəmlidir".

**E.Mirzəbəyli Azərbaycanın seçki sisteminin iddiaçıların çox olmasına şərait yaratdığını düşünür:** "Namizədlərin sayının ölkənin ərazi, yaxud əhali baxımından böyüklüyünə, yaxud kiçikliyinə heç bir aidiyyəti yoxdur. Bu daha çox siyasi sistemlə və mədəniyyətlə, eləcə də, bu və ya digər ölkənin seçki qanunvericiliyi ilə bağlı olan məsələdir. Məsələn, ABŞ-da əhalinin sayı 324 milyona yaxındır. Amma rəqabət əsasən iki partiya və təbii ki, iki namizəd arasında gedir. Rusiyanın əhalisi isə ABŞ əhalisinin heç yarısı qədər deyil, amma prezident seçkilərində 14 nəfər mübarizə aparır. Bununla bağlı nümunələrin sayını artırmaq olar. Azərbaycanın seçki sistemi imkan verir ki, seçkilərdə namizədlərin sayı çox olsun. Bizim seçki qanunvericiliyinə görə, namizədlərin özləri, təşəbbüs qrupları, siyasi partiya və siyasi partiyalar blokları prezidentliyə namizədlər irəli sürə bilərlər. Göründüyü kimi, qanunvericilikdə namizədlərin sayına məhdudiyyət qoya biləcək heç bir hüquqi manea yoxdur. Bu baxımdan, namizədlərin sayının çox və ya az olması iddialı şəxslərdən və siyasi partiyalardan asılıdır. Bunu öncədən proqnozlaşdırmaq mümkün deyil. Hər halda, Azərbaycanda keçiriləcək prezident seçkisində namizədlərin sayının 5 nəfərdən az olmayacağını düşünürəm. Siyasi partiyanın, partiyalar blokunun öz namizədini açıqlaması siyasi mesaj xarakteri daşıyır. Bu, hüquqi qərar deyil. Seçki qanunvericiliyinə görə, prezidentliyə namizədlərin irəli sürülməsi prosesi seçkilərə 60 gün qalmış başlayır. Yalnız seçkilərə rəsmən start verildikdən sonra namizədlərin irəli sürülməsi hüquqi xarakter daşıyır. Təmsil olunduğum partiyaya gəldikdə isə bu barədə qərarımızı qurultayda verəcəyik".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

# Deputatdan "qara siyahı"dakı azərbaycanlı oliqarxlara çağırış

## Zahid Oruc: "Vəsaitlərini Azərbaycana yatırsınlar"

**ABŞ-ın Rusiyaya qarşı tətbiq edəcəyi yeni sanksiyalar Şimal qonşumuzda yaşayan Azərbaycan əsilli milyarderlərdən yan ötməyəcək. Belə ki, ABŞ Maliyyə Nazirliyinin tərtib etdiyi sanksiya siyahısında əslən Azərbaycandan olan 4 milyarderin - Fərhad Əhmədov, Qod Nisanov, Vahid Ələkbərov və Araz Ağalarovun da adı daxil edilib. Onlar digər 92 oliqarxla birlikdə Amerika üçün "arzuolunmaz" şəxslər hesab olunacaqlar.**



Azərbaycan əsilli milyarderlərin ABŞ-ın qara siyahısına düşməsi ölkəmizdə necə qarşılanır? Azərbaycanda bu adamların sanksiyalardan hansı zərəri çəkəcəklərini düşünürlər? Suallara cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən şəxslərdən cavab almağa çalışdıq.

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bildirdi ki, həmin şəxslər milli mənsubiyyətlərinə görə ABŞ-ın sanksiyalar siyahısına düşməyiblər:** "Bunun həmin şəxslərin milli, yaxud ölkə mənşəyi ilə heç bir bağlılığı yoxdur. Bu şəxslər sırf Rusiyadakı fəaliyyətlərinə görə sanksiyaya məruz qalırlar". **Azərbaycanın Rusiyaya qarşı sanksiyalara qoşulmadığını xatırladan baş redaktor hesab edir ki, siyahıya düşmək azərbaycanlı milyarderlərin buradakı biznesinə hər hansı təsir göstərməyəcək:** "Bir müddət əvvəl Azərbaycan, Rusiya və İran dövlət başçılarının görüşündə əldə olunan razılaşmaya görə, tərəflər bir-birinə qarşı tətbiq olunan qeyri-legitim sanksiyalara qoşulmayacaqlar. Düşünürəm ki, Azərbaycan indiyədək belə bir addım atmayıb, bundan sonra da atmayacaq. Bu isə o deməkdir ki, həmin milyarderlərin buradakı biznesinə hər hansı təhlükə yoxdur".

**Milli Məclisin üzvü, deputat Zahid Oruc bildirir ki, ABŞ-la Rusiya arasındakı münasibətlər SSRİ dağılandan bəri ən aşağı səviyyəyə düşüb:** "Donald Trampın səlahiyyətləri idarəetmənin üçdə birinə bərabərdir. Ona görə də Rusiya əleyhinə yönəlmiş ən kəskin sanksiyaları belə imzalamağa məcburdur. Əks halda, özü impiçment təhlükəsi ilə üzləşəcək. Konkret ünvanlı sanksiyalara gəlincə, siyahı etnik-milli əsaslarla deyil, o milyarderlərin Rusiya siyasi hakimiyyətinə bağlılıq səviyyəsinə görə hazırlanıb. Məsələ burasındadır ki, o adamların belə bir bağlılıq olmadan, hakimiyyətin resurslarına söykənmədən bu qədər var-dövlət əldə etməsi qeyri-mümkündür. Dünyada elı bir biznes layihəsi yoxdur ki, qısa müddətdə milyarderə çevriləsən - Mark Zükerberq kimi nümunələr çox nadir rast gəlinir. Bu baxımdan, həmin milyarderlər dövlətin gücündən istifadə edib varlandıqları kimi, Rusiya dövləti əleyhinə yönəlmiş sanksiyaların obyekti olmaq ehtimalını da hər zaman göz altına almalıydılar".

**Deputatın fikrincə, yeni sanksiyaların əsas məqsədi yalnız Rusiya hakimiyyəti və ona bağlı şəxsləri iqtisadi baxımdan sıxışdırmaq deyil, həm də onların arasına nifaq salmaq, kimlərinsə ABŞ məxfi orqanları ilə əməkdaşlığına nail olmaqdır:** "Ona görə də azərbaycanlı milyarderlər mərkəzdənqaçmaya meyllənməməli, Putinlə yaxın münasibətlərini saxlamalıdılar. Rusiya telekanallarındakı müzakirələrə baxdım. Bu müzakirələrdə siyahı sanki bir şərəf lövhəsi kimi dəyərləndirilirdi. Onlar düşünürlər ki, Putin siyahıya düşənləri bir qədər də mükafatlandıracaq. Yəni bu məsələnin onlara yalnız zərəri olmayacaq".

**Z.Oruc deyir ki, sanksiyaların siyahıda olan biznesmenlərlə əlaqə quran Avropa şirkətlərinə də tətbiq olunması azərbaycanlı milyarderləri öz vəsaitlərini Azərbaycana yönəltməyə təşviq edə bilər:** "Biz, əlbəttə, qonşu dövlətin sanksiyalara məruz qalmasının tərəfdarı deyilik. Lakin bu sanksiyalar milyarderlərin öz vəsaitlərini Azərbaycana yatırması üçün əlverişli imkanlar yaradacaq".

**Milli Məclis üzvü Azərbaycanın sanksiyalara qoşulması qeyri-mümkündür:** "Baxmayaraq ki, ABŞ-ı idarə edən qırğıların bir məqsədi də Azərbaycan kimi ölkələrlə Rusiyanın münasibətlərini korlamaqdır, bizim bu sanksiyalara dəstək verməyimiz qeyri-mümkündür. Bu, bizim üçün çox böyük problemlər yarada bilər".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Neftin bahalaşmasının fəsadları-ekspertlər narahatdır

## İqtisadçılar hesablayır ki, neft qiymətlərinin 20 faiz qalxması iqtisadi yüksəlişin 0,5 faizini "yeyəcək"

**Dünya bazarında neftin qiymətinin yüksələn xətlə getməsi hasilatçı ölkələri sevindirsə də, bir çox iqtisadi analitiklər, beyin mərkəzləri bundan narahatdırlar. Belə ki, Böyük Britaniyanın "The Telegraph" qəzeti yazır ki, təhlilçilərin xəbərdarlığına görə yüksək neft qiymətləri qlobal iqtisadi yüksəlişi poza bilər. Neft qiymətləri 2017-ci ilin iyunundakı aşağı səviyyəsindən hazırda 50 faiz yüksəlib. Neftin bahalaşması isə dünyada inflyasiyanın yüksəlməsi deməkdir.**




JP Morgan və Barclays gələn il üçün neftin fuçers qiymətlərini qaldırıblar. Morgan Stanley bildirir ki, bu öz növbəsində inflyasiya proqnozlarının da yüksəlməsinə səbəb ola bilər, çünki yüksək neft qiymətləri bir qayda olaraq daha yüksək enerji və yanacaq qiymətləri deməkdir. Bu, nəticə etibarilə başqa malların, o cümlədən ərzaq və xidmətlərin qiymətlərinin qalxmasına səbəb olur. Ekspertlər bildirirlər ki, inflyasiyanın yüksəlməsi iqtisadi artımı yavaşıdır, çünki bu halda mərkəzi banklar uçot faizini daha çevik qaldıra bilirlər. Lakin təhlilçilər bunu da qeyd edirlər ki, neft qiymətlərinin qalxmasına elə qlobal iqtisadiyyatın özü rəvac verib. İqtisadi yüksəliş bir qayda olaraq neftə tələbatı artırır. Təhlilçilərin fikrincə, iqtisadi artım bu ilin sonunadək neftə olan tələbatı günə 98, 6 milyon bareldən 101, 1 milyon barelə qaldıracaq. Digər tərəfdən, neft qiymətlərinin qalxmasına Venesuelada təchizatın çökməsi, OPEC-in hasilatı ixtisar etməsi də başlıca səbəblərdən biridir.

Neft qiymətlərinin qalxması ABŞ-da şist neft hasilatını da yüksəldəcək. Digər ölkələr də qiymət artımından həvəslənib hasilatı artıra bilərlər.

İqtisadçılar hesablayır ki, neft qiymətlərinin 20 faiz qalxması iqtisadi yüksəlişin 0,5 faizini "yeyəcək".

Bu da ilk növbədə inkişaf etməkdə olan ölkələrə, xüsusən də əhalinin yoxsul təbəqəsinə təsir edəcək. Çünki neftin bahalaşması ilə dünyanın bütün ölkələrində istehsal məhsulları bahalaşa bilər. Neft, dolayısı ilə yanacaq məhsullarının həm istehsalında, həm də daşınmasında mühüm rol oynadığından maya dəyərinin də əsasını təşkil edir.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlama verən iqtisadçı ekspert Vüqar Bayramov isə hesab edir ki, neftin hazırkı qiyməti hələ ki iqtisadi inkişafı əngəlləyəcək qədər yüksək səviyyədə deyil:** "Neft hələlik dünya iqtisadiyyatında inflyasiyanı artıracaq qədər bahalaşmayıb. Ümumilikdə isə dünya bazarında neftin qiymətinin artması birmənalı şəkildə inflyasiyaya təsir göstərən faktordur. Enerji məhsul istehsalında ən çox yer tutan xərc maddələrindən biridir. Sözsüz ki, enerjinin bahalaşması nəticədə məhsulların xərcinin artmasına gətirib çıxarır. Lakin hələ ki neftin hazırkı qiymətləri "The Telegraph" qəzetinin yazdığı kimi, ciddi inflyasiya yaratmır. Qiymətləndirmələr də göstərir ki, əgər neftin bir barel üçün qiyməti 80 dollardan yüksək olarsa, bu halda inflyasiya yarada bilər. İndiki məqamda neftin bir barelinin 70 dollardan aşağı qiymətə satıldığını nəzərə alsaq, bu, inflyasiya yaradıcı hədd hesab edilmir. Qara qızılın istənilən həddə bahalaşması məhsul istehsalında xərc maddələrinin artmasına səbəb olur. Lakin indiki məqamda istehlakçı ölkələri yoxsullaşdıracaq səviyyədə inflyasiya yaradıcı effektə malik deyil".

**İqtisadçı ekspert onu da diqqətə çatdırdı ki, dünya bazarında neftin qiymətinin kəskin artacağı proqnoz edilmir:** "ABŞ və Kanadada şist neft hasilatının artması da gözlənilir. Bu da qiymət artımın qarşısını alan faktorlaran biridir. O baxımdan hələlik belə bir təhlükə yoxdur. Mövcud şərtlər daxilində neft bazarında ciddi qiymət artımları proqnoz edilmir".

**Vüqar Bayramovun sözlərinə görə, qiymət artımı hasilatın da artmasına gətirib çıxarır:** "Bu da son nəticədə dünya bazarına çıxarılan məhsulun həcminin artmasına gətirib çıxarır və qiymətlərin kəskin aşağı düşməsinə səbəb olan faktora çevrilir. Bu səbəbdən bir sıra OPEK ölkələri, o cümlədən İran neftin hazırkı qiymətlərindən belə narahatlıqlarını ifadə edirlər. Bu, yeni bir fikir deyil, uzun müddətdir müzakirə edilən məsələdir. 2014-cü ildə neftin qiymətinin ucuzlaşmasının səbəblərindən biri də təklifin tələbi kəskin üstələməsi ilə bağlı idi. Nəzərə alınmalıdır ki, qiymət artımı hasilatı stimullaşdırır. Bu da kəskin qiymət azalmalarına səbəb ola bilər. Hazırda OPEK də kəskin qiymət artımında maraqlı deyil. ABŞ-ın şist nefti yenə də OPEK üçün rəqib olaraq qalmaqdadır".

**İqtisadçı sonda onu da vurğuladı ki, bu ilin sonuna qədər neftin qiymətini proqnozlaşdırmaq çətin məsələdir:** "Burada çox müxtəlif faktorlar var. Hətta BP kimi iri şirkət belə neftin qiymətini proqnozlaşdırmır. Neftin qiyməti ilə bağlı beynəlxalq proqnozlara diqqət yetirsək, 2018-ci il üçün orta qiymət 60-70 dollar intervalı əsas götürülür. Güman edilir ki, neftin qiyməti 70 dollarlıq həddi kəskin keçməmək şərtilə, əsasən 60 dollar ətrafında formalaşacaq. Sözsüz ki, burada şist neftin bazara çıxarılan həcmi, ABŞ-da neft sektorunda istifadəyə veriləcək quyuların sayı, eyni zamanda iqtisadi və siyasi faktorlar da birbaşa təsir göstərəcək. Hələ ki beynəlxalq analitiklər neftin qiymətinin bu il üçün 60 dollar ətrafında olacağı proqnozu üzərində daha çox dayanırlar".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 25 (6914) 2 fevral 2018

**Bayıl qəsəbəsi, Bakı Televiziya Qülləsinin ətrafındakı sürüşmə zonasında təhlükəli vəziyyət davam edir. Ərazidə Fövqəladə Hallar Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin eləcə də Respublika Seysmoloji Xidmət Mərkəzinin əməkdaşları işlər aparırlar. Yaxınlıqda yaşayan əhali isə artıq bir həftədir ki, evlərindən didərgin düşüblər. Torpağın sürüşmə təhlükəsi olduğu üçün Səbayel Rayon İcra Hakimiyyətinin nümayəndələri əhalini evlərindən 163 saylı məktəbdə yaradılan sığınacağa köçürüblər. Sığınacaqdakı şəraiti bəyənməyən bəzi sakinlər isə hazırda ya öz evlərində, ya da qohumlarının mənzillərində gecələyirlər.**

# Bayıl sakinləri 1 həftədir didərgindir- sürüşmə zonasından son xəbərlər

## Sakinlər: "Heç olmasa kirayə çıxarsaydılar, başımıza çarə qılardıq"





Bir həftə öncə, yeni yanvarın 25-də Səbayel Rayon İcra Hakimiyyəti məlumat yayaraq bildirmişdi ki, nəticə müəyyən olunanadək sakinlər kirayə haqqı ilə təmin olunacaq və çıxarılan yekun rəyə uyğun tədbirlər görüləcək. Bildirilmişdi ki, əgər ərazidə təhlükə davam edərsə, vətəndaşlara birdəfəlik kompensasiya verilərək ərazidən köçürülmə məsələlərinə baxılacaq.

**Ekologiya Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov bildirib ki, ərazidə apardıqları buruq-qazma işləri artıq başa çatıb:** "Mexaniki, fiziki xüsusiyyətləri öyrənmək üçün ərazidən götürülən nümunələr laborator analizə göndərilib. Məqsəd sürüşmə müstəvisi, sürüşmənin başvermə səbəbləri, qrunt sularının səviyyəsini öyrənməkdir. Bundan sonra bizim və digər aidiyyəti qurumların nəticələri kompleks şəkildə öyrənilərək vahid rəyə gələnəcək".

Ə.Qaralov həmçinin qeyd edib ki, sürüşmə sahəsində vəziyyət stabil olaraq qalır.

Sakinlər isə hələ də kirayə çıxarılacaqları günü gözləyirlər. Onlar artıq məhəlləyə yığışıb, ocaq da qalamırlar. Çünki özlərinin söyləmələrinə görə yandıracaq odunları da qalmayıb.

**Sakin Zahid Aslanov hazırkı durumları ilə bağlı "Yeni Müsavat"a aşağıdakıları söylədi:** "Dünəndən etibarən evimizə gələn su xətlərini əsas xətdən tamamilə ayırdılar. Bu vaxta qədər işıq, qaz verilişini dayandırmışdılar. İndi də dedilər ki, suyu işlədirsiz, ərazidə ağırlıq yaranır. Məhəllədə oturub, kirayə çıxarılacağımız günü gözləyirik. Bizə elə hər gün deyirlər ki, sizi sabah köçürəcəyik".

**Sakinlərin bəziləri iddia edirdilər ki, onların evləri qəzalı vəziyyətdə olmadığı halda müvafiq qurumların əməkdaşları mənzillərini tərk etmək göstərişi verirlər. Z. Aslanov isə fərqli fikirlər söylədi:** "Bütün evlər dağın ətəyində tikilib. Əgər dağ sürüşsürsə, deməli, hər kəsin mənzili təhlükədədir. Evi təhlükədə olmayan ailə köçürülməyib. Sadəcə, burada məsələ belədir ki, mənim evim sürüşməyə daha yaxındır, kiminsə evi bir qədər aralıdadır. Ancaq sürüşmə baş verən zaman hər birimizin mənzili uça bilər. Şəxsən mənim evimdə çatlar günbəgün böyüyür. Hazırda sürüşmənin mərkəzinə gəlib-gedən rəsmilər var. Ancaq bizimlə görüşmədikləri üçün kim olduqlarını bilmirik. Əvvəllər məhəllədə ocaq qalayıb, otururduq. İndi isə odunumuz da qurtarıb. Buna baxmayaraq, soyuq da olsa yenə də məhəlləmizdəyik. Axşamları qohumumun evində gecələyirəm. Gündüz isə bura gəlirəm. Öz evimdə bir gün qaldım, gördüm ki, donuram. Çünki nə işıq var, nə də qaz. Heç olmasa kirayə çıxarsaydılar, başımıza çarə qılardıq. Pərən-pərən düşmüşük. Anam bacımgildə, özüm burada, uşaqlarım başqa yerdə qalır. Hər kəsin ailəsi bu cür dağınıqdır. İşə də gedə bilmirik ki, qurumlardan nümayəndələr gəlirlər. Çox çətin vəziyyətdəyik".

**Jurnalist Elməddin Muradlının da evi Bayılda sürüşmə zonasındadır. Onunda mənzilində bütün kommunal xətlər kəsilib. E. Muradlı da "Yeni Müsavat"a bildirdi ki, sakinlərin kirayə köçürülməsi ilə bağlı konkret söz deyilmir:** "Bizdən aşağıda təxminən 9 evdə işıqlar yanırdı. Axşam icra hakimiyyətindən gəlib, həmin evlərin də elektrik xətlərini kəsiblər. Maraqlandım, söylədilər ki, sizin evlər də qırmızı xəttə düşür. Ona görə də icra hakimiyyətindən göstəriş verilib ki, ərazidəki bütün kommunal xidmətlər dayandırılsın. Dedilər ki, ya bu gün, ya da sabah kirayə pulu məsələsi həll olunacaq. Sözlərinə görə, bununla bağlı Nazirlər Kabinetinin hansısa qərarı gözlənilir. Keçən həftədən elan etdilər ki, kirayə pulu verməyişik, insanlar çıxıblar. Ancaq hələ də ortada heç nə yoxdur. İnsanlar yenə də məktəbdə, qohum evlərində qalır. Əvvəldən də dedilər ki, qadın-uşaqlar çıxsın, hər evdə bir kişi qalıb, evi qorusunlar. Biz də razılaşdıq ki, qalaq. İndi bilmirəm bunlar kişiləri daş-qaya hesab edirlər, yoxsa məsələ nədir? İşığı, qazı, suyu da kəsiblər, ancaq kişi evdə qalmalıdır. Bunu başa düşə bilmədik. Polis postlarının da birini orta, digərini üst yolda qurublar. Kim zəmanət verəcək ki, oğrular bizim aşağı məhəllədəki evlərə girməyəcəklər. İnsanlar bu baxımdan da narahatdırlar. Yapon mütəxəssislər də gəlib nə isə işlər aparırlar. Yekun rəy üçün 10 gün vaxt istəyiblər. Deməli, təxminən hələ 1 həftə də gözləmək lazımdır. Hazırda 3-4 evdə çat var. Digərlərinin isə heç birində çat yoxdur. Neçə illərin problemi olduğu üçün 2000-ci illərdə bizim evlər planda idi ki, köçürüləcək. 2003-cü ilə qədər müəyyən qədər kompensasiya verdilər. Sonra evlərin qiyməti qalxdı, torpaq bahalaşdı, o vaxtı adambaşına 2700 dollar pul verirdilər. Orada elə evlər var ki, 2 mərtəbəlidir, normal şəraiti var. İndi gətirib bu ailələrə 11 min pul verirdilər. Camaat da deyirdi ki, heç 11 min evimin daşı eləmir. Ona görə narazılıq yarandı və 2003-cü ilin dekabr ayından köçürülmə prosesi dayandırıldı. Dedilər ki, hökumət kompensasiya məsələsinə təzədən baxacaq, köçürülmə davam edəcək. Ancaq davam etmədi. İndi isə Teleqüllə tərəf köçürülmə mərhələsindədir. Bura ilə üzbəüz mərhələdə hər şey qaydasındadır. 2000-ci ildə isə sürüşmə məhz qarşı tərədə baş vermişdi. Hazırda 108 ev plandadır və bunları ilkin mərhələdə köçürməyi düşünürlər".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# 40 min "inoqorodnik"?



**Xalid KAZIMLI**

**Heç deme, dövlət səviyyəsində olmasa da, xaricdə təhsil proqramı cəmiyyət səviyyəsində möhkəm dəstəklənir. Bu günlərdə mediada xaricdə təhsil alan azərbaycanlı gənclərlə bağlı xəbərlər dərc olunmuşdu və orada bir sıra rəqəmlər vardı.**

Xəbərdə qeyd olunurdu ki, qonşu ölkələrin birində 15 min azərbaycanlı tələbə təhsil alır. Ölkənin adı çəkilməmişdi.

Araşdıranda məlum olur ki, həmin ölkənin adı bu il çəkilməsə də, ötən il çəkilibmiş. Azərbaycanlı gənclərə qucaq açan ölkə qardaş Türkiyədir.

Bundan başqa, Rusiyada (o cümlədən bu ölkənin federal subyekti olan Dağıstanda), Ukraynada və Avropa ölkələrində ümumilikdə 24 min azərbaycanlı təhsil alırmış.

Belə anlaşılır ki, təxminən 40 min azərbaycanlı öz vəsaiti hesabına ölkədən kənarda təhsil alır.

Bu, sevindirici haldırmı? Əsla!

Bu tələbələr ödədikləri ətək-ətək pulun qarşılığı olaraq, arayışdan və diplomdan başqa heç nə almırlar - nə düz-əməlli təhsil, nə dərin savad, nə təcrübə-filan.

Onların 95-98 faizi burada, öz ölkəmizdə Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) keçirdiyi tələbə qəbulu üzrə dövlət imtahanlarında adi keçid balını toplaya bilməyən gənclərdir.

Söz yox, bu tələbələrin sırasında 650-700 bal toplayan eruditlər də var, öz qabiliyyətlərlərinə güvəndikləri üçün dünyanın ən yaxşı universitetlərində təhsil almağı üstün tutublar. Ancaq onlar barmaqla sayılacaq qədər azdırlar. Bu cür gənclər əslində öz şəxsi vəsaitləri hesabına "xaricdə təhsil proqramı"na qoşulanların 1 faizi qədər də deyillər.

Tam əksəriyyət isə 0-150 bal arasında nəticə göstərənlərdir, növbəti ildə də test imtahanlarında heç bir uğur qazanmayacaqlarını bildiklərindən attestatlarını götürüb xaricdə "ən yaxşı universitet"də təhsil almağa gediblər. Pul var, vasitəçi var, nədən olmasın?

Bu, əslində beynəlxalq miqyaslı dələduzluqdur. Yuxarıda adları çəkilən ölkələrdə fəaliyyət göstərən universitetlər üçün bu, biznes planıdır, pul qazanmaq üsuludur. Onlar uzaq ölkədən gələn gənclərin pullarını alır, əvəzində diploma bənzəyən nəsə verirlər. Əcnəbi rektorlar üçün o qədər də fərqi yoxdur ki, bu "məzun" gənclər öz ölkələrində həmin diplomları tanıtdıra, keçərli edə biləcəklər, ya yox.

Bu, xaricdəki universitetlərin rəhbərlərinin qayğısı deyil. Onlara pul lazımdır və azərbaycanlılar həvəslə bu pulu onlara verirlər. Bu üzdəndir ki, müəllimlər azərbaycanlı tələbələrə qarşı tələbkar olmur, qiymətlərini yazır (bu da ayrıca ödəniş əsasında), kursdan-kursa keçirirlər. Tələbkar olsalar, bizim tələblərin əksəriyyəti ilk semestrdəcə təhsili yarımçıq saxlamalı olar, universitetin biznes layihəsi iflasa uğrayar.

Hətta elə ölkələr var ki, tələbədən universitetə gəlməyi də tələb etmirlər. Məsələn, Dağıstandakı universitetlər belə edir. Tələbə Bakıda yaşayır, işləyir, ildə bir-iki dəfə aparıb pulunu verir, kursdan-kursa keçir.

Bizimkilərə savad, təhsil lazım deyil, gələcəkdə yaxşı yerə düzəlmək üçün sənəd lazımdır. Bu, yaxşı yeri tapmaq da problem deyil, onlar diplomu satın aldıqları kimi "yağlı yeri" də satın almağı bacarırlar. Pul olandan sonra bu, o qədər də çətin deyil.

Sadəcə, hazırda bu cür düşünənlərin qarşısında iki manea var. 1. Satın alınmış saxta diplomların ölkədə tanıtdırılması; 2. Dövlət qulluğuna aid vəzifələrə qəbulun DİM tərəfindən aparılması.

Bu iki baryeri keçmək xeyli çətindir. Amma pulu, sərvəti, əlaqələri olan şəxslər bu baryerləri də aşmaq üçün çox əziyyət çəkirlər.

2016-cı ildə Azərbaycanda 1500, 2017-ci ildə də təxminən o qədər adamın diplomu tanınmayıb. Rəsmi izahat belə olub ki, onların ölkədə olma, sərhəd keçmə vaxtları uyğun gəlməyib, üstəlik, ixtisasları üzrə minimum biliklərə malik olmayıblar.

Günü bu gün də "xaricdə universitetə attestatla qəbul" təklif edən işbazlar və onların xidmətindən yararlanmaq istəyən yüzlərlə adam var. Sanki hamı saxta yolla olsa da, ali təhsil, daha dəqiqi, ali təhsil haqda sənəd almağa məcburdur.

Sovet vaxtı respublikadan kənarda - Moskvada, Leninqradda, Kiyevdə, Minskdə təhsil alan həmvətənlərimizə "inoqorodnik" deyirdilər. "İnoqorodnik" olmaq prestijliydi. Onların sayı çox az idi. Müasir "inoqorodnik"lərin sayı 40 mini aşıb və ortada prestij-filan qalmayıb.

# Tramp Azərbaycan sərhədinə "bomba" atdı

## ABŞ prezidenti vəzifəsinin icrasına başlamasının 1 illiyi ilə bağlı Ağ Evdə çıxışında İranı hədəfə alıb



**ABŞ prezidenti Donald Tramp vəzifəsinin icrasına başlamasının 1 illiyi ilə bağlı Ağ Evdə çıxış edib. Bütün dünyanın diqqətində olan çıxışında ABŞ prezidenti həm daxili ictimai-siyasi vəziyyətə, həm də dünyada baş verənlərə, Amerikanın siyasətinə münasibətini bildirib. Gözlənildiyi kimi, Çin, Rusiya, Şimali Koreya ilə münasibətlərə toxunub və əlbəttə, İranı hədəfə alıb.**

Tramp deyib ki, İran xalqı sərt diktaturanın cinayətlərinə qarşı üsyan etdikdə səssiz qalmayıb. O deyib ki, ABŞ azadlıq mübarizəsində İran xalqının yanında olacaq. Bundan başqa, o deyib ki, Konqresdən İranla əldə edilən nüvə anlaşmasının çərçivəsi ilə bağlı məsələlərə yenidən baxmasını istəyib. İranda ötən ilin sonunda başlayan aksiyaları dəstəkləyən ABŞ prezidenti eyni zamanda Qərb ölkələrini və sələfi Barak Obamanı İran siyasətinə görə də tənqid edib. Tramp deyib ki, Obamanın ağılsızcasına İrana etdiyi yardımlar terrorçulara gedib.

Xatırladaq ki, Tramp vəzifəyə gəldikdən bu yana İranla anlaşmaya qarşıdır və ən son olaraq ötən ilin oktyabrında İranla nüvə anlaşmasını yenidən baxılması üçün Konqresə göndərib. Ancaq həm ABŞ-da, həm də Avropa Birliyi daxilində Trampın bu qərarına qarşı ciddi müxalifət var. Bu səbəbdən də ABŞ prezidenti öz çıxışında Avropa ölkələrini də hədəfə alıb. Ancaq Trampın inadla İranla nüvə anlaşmasına qarşı çıxışları onu deməyə əsas verir ki, Ağ Evin rəhbəri yaxın zamanlarda Qüds qərarında olduğu kimi, dünyanın əleyhinə olduğu addımı atıb İranla anlaşmanı ləğv edəcək.

Ancaq hələlik saziş ləğv olunmasa belə, Trampın İrana qarşı çıxışları regionda onsuz da gərgin olan ab-havanı bir az da gərginləşdirir. Son olaraq İranda baş verən çaxnaşmalarda Amerikanın rolu ilə bağlı hər iki tərəfin təsdiqləyici açıqlamaları onu göstərir ki, müəyyən çərçivədə ABŞ-İran gərginliyi sürətlə artır. Amerikanın İranla bu cür düşmənçilik siyasəti istər-istəməz 2000-ci illərin əvvəllərində yaşanan gərginlik və qarşıdurma dövrünü yada salır. İndi isə bölgədə vəziyyət daha dramatikdir və növbəti gərginlik bölgəyə daha ciddi başağrısı vəd edir.

**"Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin sədri Hasan Oktay deyir ki, ABŞ-İran qarşıdurması bütövlükdə regionun taleyinə təsir edə bilər. Ekspert deyir ki, regionda mövcud qüvvələr nisbəti İran-ABŞ qarşıdurması ilə yeni şəkil ala bilər. Söhbət Amerikanın İrana qarşı təzyiqləri artırmaq üçün müttəfiqlik münasibətlərinə yenidən baxa bilər. H.Oktayın fikrincə, proseslərin gedişi qarşıdurmanın daha da dərinləşəcəyini göstərir. Sitat:** "ABŞ İraqa qarşı təzyiqləri artırmaq üçün Türkiyəni də yanında görmək istəyəcək. Bu zaman təbii ki, Suriyada Türkiyənin narahatlığını Vaşinqton aradan qaldıra bilər. Yəni Suriya mövzusunda ABŞ Türkiyəni öz yanına çəkməyə çalışacaq. Bir az da dərinə getsək, deyə bilərik ki, Amerika kürdləri Türkiyəyə verib, bunun qarşılığında Türkiyəni İrana qarşı siyasətində öz yanında görmək istəyəcək".

**Ancaq bu məsələdə bir də Rusiyanın mövqeyi həlledici ola bilər. Belə ki, Rusiya və Türkiyə arasında anlaşma qorunub saxlanarsa, Türkiyənin Amerika ilə yaxınlaşması mümkün olmayacaq. Bu mənada H.Oktaya görə, hər şey indi Rusiyanın Suriyadakı fəaliyyətindən asılı olacaq:** "İndi hər şey bir mənada Rusiyanın mövqeyindən asılıdır. Əgər Rusiya Suriya mövzusunda Türkiyə ilə anlaşa bilsə, o zaman bu günə qədər mövcud olan Türkiyə-Rusiya-İran ittifaqı qorunub saxlana bilər və bu bir mənada İranı qoruyar. Əks təqdirdə, qarşıdakı günlər İran üçün çox sıxıntılı ola bilər".

**Bu mənada Hasan Oktay Trampın İran siyasətinin və bunun mümkün təsirlərinin əsas əlamətlərinin Suriyadakı anlaşma və siyasi qərarlara bağlı olacağını düşünür. Bir mənada indi regionun taleyinin Suriyada həll olunduğunu deyir.**

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Sərkisyanın varisi Moskvaya getdi

**Ermənistan Respublikaçılar Partiyasının prezidentliyə namizəd irəli sürdüyü Armen Sarkisyan Moskvaya səfər edib. "Sputnik" bildirir ki, bu barədə A.Sərkisyanın media-qərargahı məlumat yayıb.**

Məlumata görə, səfər çərçivəsində o, Rusiya Federasiyasındakı erməni diasporunun nümayəndələri ilə görüşəcək. Həmçinin qeyd edilir ki, ən yaxın günlərə namizədin erməni ic-



masının digər təbəqələri ilə görüşləri də planlaşdırılıb. Xatırladaq ki, 2015-ci il dekabrın 6-da qəbul edilən yeni konstitusiyaya əsasən, Ermənistan 2018-ci ildən parlamentli respublika idarəetmə sisteminə keçəcək. Yeni prezident parlamentdə 7 il müddətinə seçiləcək. Bir şəxs ard-arda iki dəfə dövlət başçısı ola bilməz. Namizədlər parlamentdə fevralın 19-dan irəli sürüləcək. Martın 2-də parlamentdə prezident seçkisi keçiriləcək.

Onu da qeyd edək ki, indiki prezident Serj Sərkisyanın səlahiyyət müddəti aprelin 9-da başa çatır.

# Afrin əməliyyatı Türkiyə və Avropa arasında sınağa çevrilir

## Əməliyyatın uzanması Suriyanın taleyi ilə bağlı qeyri-müəyyənliyi də artırır

**Türkiyə ordusunun yanvarın 20-də başlatdığı "Zeytun budağı" əməliyyatı davam edir. Əməliyyatın 13-cü günündə Türkiyə ordusu və müxaliflərin silahlı birlikləri Hatay vilayəti və Kilis rayonundan Afrin istiqamətində Əli Kar kəndini də ələ keçirib. Ordu birliklərinin Raco rayonuna doğru irəliləyişi davam edir, bir neçə strateji yüksəkliklər də ələ keçirilib.**



Bu arada kürdlər də gecələr Türkiyə ordusuna müqavimət göstərməyə çalışır. Ötən gün növbəti dəfə gecə saatlarında Kilis rayon mərkəzinə iki raket atılıb. Türkiyə prezidenti Ərdoğan Reyhanlı rayonunda Afrindən atılan raketlərin partlaması nəticəsində ölən məktəblinin anası ilə telefonla danışaraq başsağlığı verib. Ərdoğan deyib ki, şəhidlərin və qazilərin qanını yerdə qoymayacaqlar.

Türkiyə ordusu Baş Qərargah rəisi bəyan edib ki, əməliyyatlar başlayandan bu günə qədər 790 terrorçu zərərsizləşdirilib. Baş Qərargahdan yayılan rəsmi açıqlamada qeyd olunur ki, YPG/PKK terrorçularının mövqelərinə həyata keçirilən hava zərbələri nəticəsində terrorçuların istifadə etdiyi 18 sığınacaq məhv edilib. Eyni zamanda hava zərbələri nəticəsində 78 nəfər terror təşkilatı üzvü zərərsizləşdirilib.

Ancaq Afrin əməliyyatının uzanması Avropada Türkiyəyə qarşı etirazlara səbəb olmağa başlayıb. Bu yaxınlara qədər Türkiyə ilə normal münasibətləri olan Fransa hökuməti Afrin əməliyyatını tənqid etməyə başlayıb. Prezident Makron bəyan edib ki, Afrin əməliyyatı işğala çevrilməməlidir. Fransa mediası isə artıq Türkiyənin Afrin əməliyyatını tənqid edən materiallar verməyə başlayıb. Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu isə Afrikada işğallar həyata keçirən Fransanın Türkiyəyə dərs verməyə haqqının olmadığını deyib.

Qeyd edək ki, bir neçə gün əvvəl Türkiyənin İdlibdə yerləşən atəşkəsi təmin etmə qüvvələrinin hərbi maşın karvanına qarşı partlayış törədilib. Nəticədə bir hərbçi həlak olub. Bir nəfər isə yaralanıb. Artıq məlumatı Türkiyə ordusu Baş Qərargahı da təsdiqləyib. Rəsmi açıqlamada deyilir ki, yerdəyişmə həyata keçirən Türkiyə ordusu konvoyunun keçdiyi zaman minalanmış avtomobil partladılıb.

Suriya hökumətinə müxalif olan, mərkəzi ofisi Londonda yerləşən İnsan Haqları Müşahidə Evi təşkilatı isə hücumun "hökumətə yaxın" qüvvələr tərəfindən həyata keçirildiyini bəyan edib. Ancaq hələlik terror aktının məsuliyyətini kimsə üzərinə almayıb. Radikal islamçı "Heyət Təhrir əş-Şam" təşkilatı isə terror aktını pisləyib.

Hələlik Türkiyə ordusunun hansı səbəbdən gecə yerdəyişməsi həyata keçirdiyi və İdlibin mərkəzinə doğru irəlilədiyi haqda məlumat verilmir. Üstəlik, bu hadisənin məhz Soçidə Suriya Milli Dialoq Konqresindən bir gün əvvəl baş verməsi də bir ayrı sual doğurur. Məsələ ondadır ki, Türkiyə İdlibin şimalı və mərkəzində atəşkəsin qorunmasına təminatçı ölkə idi. Üstəlik, məhz bu ərəfədə kürdlərin Afrini Suriya ordusuna verəcəyi ilə bağlı şayiələr yayıldı. Görünür ki, Türkiyə ordusu İdlibdə "özünü göstərməklə" həm də sahə rəqiblərinə mesaj vermək istəyib. Ancaq sonradan məlum oldu ki, Suriya mərkəzi hökuməti ilə kürdlərin anlaşması baş tutmayıb. Daha sonra isə Soçi Konqresi də bir mənada uğursuz yekunlaşdı.

Afrin əməliyyatının tezliklə yekunlaşması Türkiyə və onun sahə müttəfiqləri üçün bir çox suallara aydınlıq gətirəcək. Əks təqdirdə, əməliyyatın uzanması Ankara üçün başağrısına çevriləcək. Afrin və İdlibdə vəziyyətin aydınlaşması Suriyanın gələcək taleyi və müttəfiqlərin yeni fəaliyyət planı hazırlaması zərurətini ortaya qoyacaq. Çünki Soçidən də anlaşılan odur ki, yekun siyasi anlaşmanın əldə olunması çətin olacaq. Ruslar üçün indi yeganə yol təzyiqi daha da artırmaq və hökumətə qarşı savaşan qüvvələri sıradan çıxarmaqdır. Hər şey Afrindəki əməliyyatların gedişindən asılı olacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 25 (6914) 2 fevral 2018

**Fevralın 2-də Bakı Apelyasiya Məhkəməsində sabiq nəqliyyat naziri Ziya Məmmədovun müşaviri Çingiz Baxşıyevin həbs etdirdiyi qohumu Rövşən Əhmədovun işi üzrə proses davam etdiriləcək. Prosesdə Rövşən Əhmədovun barəsində olan hökmdən zərərçəkmiş şəxslərin verdiyi apelyasiya şikayəti və prokurorun verdiyi apelyasiya protesti üzrə baxılır. Hakim Əmir Bayramovun sədrlik etdiyi ötən iclasda R.Əhmədovun vəkili Türkel Süleymanlı çıxış edib və müvəkkilinin barəsində olan həbs qərarından Ali Məhkəməyə şikayət etdiyini deyib. Həmin şikayətə fevralın 2-də baxılacaq.**

# Ziya Məmmədovun müşaviri böyük pulları kimə verib - sensasion iddialar

## Hakim Əmir Bayramovun qərəzli mövqeyi ilə xərclənən pullar arasında əlaqə varmı?


Çingiz Baxşıyev


Rövşən Əhmədov

**Çingiz Baxşıyevin böyük pulları kimlərə çatıb?**

Gələn məlumatlar onu deməyə əsas verir ki, Çingiz Baxşıyev yaxın qohumu olan Rövşən Əhmədovu həbsə aldırmaqda israrlıdır. Ziya Məmmədovun sabiq müşaviri bu işdən ötəri böyük pullar xərclədiyini və bundan sonra da xərcləyəcəyini gizlətmir. Belə iddialar var ki, sabiq müşavir bu günə qədər öz qohumunun həbsi üçün müxtəlif ünvanlara xeyli məbləğlər çatdırıb. İstəyi də budur ki, Rövşən Əhmədov azı 10 illik həbs cəzasına məhkum edilsin, Rövşən Əhmədov susun, bildiklərini heç harda deməsin. Bunu da gizlətmir, açıq deyir. Onun xərclədiyi məbləğlərin Bakı Apelyasiya Məhkəməsində kimlərəsə, xüsusən hakim Əmir Bayramova çatması haqda səhih məlumatlar yoxdur.

**Şahidlər yalançı deyil ki?**

Ümumilikdə isə Rövşən Əhmədovun yaxınları hakimin qərəzli mövqedə olmasını, sanki ittiham tərəfindən çıxış etdiyini bildirirlər. Deyirlər ki, işdə Rövşən Əhmədovun günahını sübut edən dəlil, fakt yoxdur. Bütün ittiham Çingiz Baxşıyevin mülahizələrinə və yalançı şahidlərin ifadələrinə əsaslanır. Şahidlər məsələsinə gəlincə, bir məqama da diqqət edək: - 3 il əvvəl Çingiz Baxşıyev Rövşən Əhmədovun barəsində Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə şikayət ərizəsi vermişdi. Ərizədə Rövşən Əhmədovun onun əmlakını oğurladığını yazmışdı. Uzun araşdırmalardan sonra iş məhkəməyə göndərilmişdi və Rövşən Əhmədova bəraət verilmişdi. Yəni məhkəmədə üzə çıxmışdı ki, Rövşən Əhmədovun həbsi üçün əsas yoxdur. Çingiz Baxşıyevin ərizəsində qızıl oğurluğu ilə bağlı yazdıqları yalandan başqa bir şey deyil. Rövşən Əhmədov bəraət alandan sonra Çingiz Baxşıyev daha bir ərizə yazdı və özünə şahidlər də tapdı. Maraqlı məqam da budur ki, bu gün ortalığa çıxarılan şahidlər həmin vaxt niyə istintaqdan gizlədilib? Həmin şahidlər ibtidai istintaqa, sonradan məhkəməyə niyə təqdim olunmayıblar? Çingiz Baxşıyevin ərizəsinə əlavə etdiyi şahidlər yalançı şahidlər deyillər ki?

**Hakimin xəstəxanada olan Rövşən Əhmədov haqda həbsli axtarış qərarı hansı maraqlara söykənir?**

Hakimin Rövşən Əhmədovla bağlı addımları da ədalət məhkəməsi adına yaraşmır, qərəzli olmasını söyləmək üçün çox ciddi əsaslar var.

Yanvarın 8-də təcili yardımla xəstəxanaya çatdırılan Rövşən Əhmədovun xəstəxanada müalicə olunması haqda arayış hakim Əmir Bayramova təqdim olunub. Əmir Bayramov arayışı alıb və 3 saat sonra olduqca məntiqsiz, Çingiz Baxşıyevin maraqları ilə üst-üstə düşən bir qərar verib - Rövşən Əhmədovun xəstəxanada müalicə olunduğunu bilə-bilə barəsində həbsli axtarış qərarı çıxarıb! Həmin qərar dərhal icraya yönləndirilib və Ruhi-Əsəb Xəstəxanasında müalicə olunan Rövşən Əhmədov zorla təcridxanaya aparılıb. Əmir Bayramovun bu qərarı hansı qanuna, hansı məntiqdən çıxış edərək verdiyi sual doğurur. Onun iş üzrə hakimlik edib ədalətli qərar verəcəyini şübhə altına alır.

**Narkotik ticarəti və "qara pullar" haqda sirləri bilməyin bəlası**

Bundan başqa, Rövşən Əhmədov sonunda bəraət aldığı məhkəmədə açıqlamışdı ki, həbsi Çingiz Baxşıyevin narkotik ticarəti və ölkədən "qara pullar"ın çıxarılması haqda məlumatlı olmasına görə baş verib. Çingiz Baxşıyev onu həbs etdirməklə bu məlumatların ictimailəşdirilməsinin qarşısının almaq istəyib.

Rövşən Əhmədov Çingiz Baxşıyevin qızıllarını oğurlamadığını, başına gətirilən müsibətlərin nazir müşavirinin "qara işləri" haqda danışmaması üçün edildiyini bəyan etmişdi. Rövşən Əhmədovun bildikləri çoxdur, onu həbs etdirməklə Ç.Baxşıyev sirlərinin üzə çıxmasının qarşısını almağa çalışır. 800 manat maaş alan Ç.Baxşıyevin təkcə Bakı şəhərində dəyəri 100 milyon dollarla ölçülən əmlakları var.

Yada salaq ki, Rövşən Əhmədov ona elan edilmiş ittihamları qəbul etmir və şərləndiyini bəyan edib.

❑ **E.MƏMMƏDƏLİYEV,**
❑ **"Yeni Müsavat"**

## Ev dustağı olan xanım general bəraət istəyir


Natəvan Mirvətova

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in sabiq baş idarə və idarə rəisləri Sübahir Qurbanov, Teymur Quliyev, Natəvan Mirvətova, həmin qurumun vəzifəli şəxsləri Fizuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun barəsində olan cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın xəbərinə görə, prosesdə təqsirləndirilən Natəvan Mirvətova ifadə verib. O, özünü təqsirli bilməyib, vəzifəsini düzgün icra etdiyini deyib. N. Mirvətova məhkəmədən barəsindəki cinayət işinə xitam verilməsini istəyib. N.Mürvətova həbs edilməyib, onun barəsində ev dustaqlığı tədbiri seçilib.

İttihama əsasən, təqsirləndirilən şəxslər 2004-2015-ci illərdə mütəşəkkil dəstə tərkibində xidməti vəzifələrinin icrası ilə əlaqədar hakimiyyətdən və öz qulluq mövqelərindən sui-istifadə ediblər.

Onlara Cinayət Məcəlləsinin 145.3 (Qanunsuz azadlıqdan məhrum etmə ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda), 178.3.1, 178.3.2 (dələduzluq mütəşəkkil dəstə tərəfindən külli miqdarda ziyan vurmaqla törədildikdə), 179.3.1, 179.3.2 (Mənimsəmə və ya israf etmə mütəşəkkil dəstə tərəfindən külli miqdarda törədildikdə), 181.3.1, 181.3.2 (Quldurluq mütəşəkkil dəstə tərəfindən külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə), 182.3.1, 182.3.2 (Hədə-qorxu ilə tələb etmə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə) və digər maddələri ilə ittihamlar irəli sürülüb.

# Dövlətin Beynəlxalq Bankdakı payını xarici müştəri alır

## Ekspert: "AYİB-dən əlavə, digər beynəlxalq qurumların da özəlləşmədə iştirakına şərait yaradılmalıdır"




**Beynəlxalq Bankın restrukturizasiya prosesindən narazı qalan iki kreditorun London Ali Məhkəməsində iddia qaldıraraq, ilkin qərar əldə etməsi barədə məlumat verilmişdik.**

Xatırladaq ki, Beynəlxalq Bankın Rusiyanın dövlət bankı olan "Sberbank" və "Franklin Templeton Investment Management Limited" şirkəti qarşısında 600 milyon dollara yaxın öhdəliyi var. Hər iki kreditor bankın borclarının Azərbaycan qanunvericiliyinə uyğun aparılan restrukturizasiyadan narazıdılar. Bir çox ekspertlər onların iddiaları əsasında London Ali Məhkəməsində qəbul edilən qərarın bütövlükdə Beynəlxalq Bankın borclarının restrukturizasiya prosesinin başa çatmasına əngəl yaradacağı, bankın özəlləşdirilməsində ciddi problemlərə səbəb olacağını gözləyirlər.

Onu da qeyd edək ki, Azərbaycan hökuməti Beynəlxalq Bankın özəlləşməsində iştirak etməsi üçün Avropa Yenidənqurma və İnkişaf Bankı (European Bank for Reconstruction and Development, EBRD) ilə ötən ildən danışıqlar aparır. Sentyabrda Azərbaycana gələn bankın prezidenti Suma Çakrabarti bildirib ki, EBRD Azərbaycan bank sektorunun, o cümlədən sektorun ən iri oyunçusu olan Beynəlxalq Bank ASC-nin (ABB) restrukturizasiyası prosesinə dəstək verəcək. O, bununla bağlı Azərbaycan prezidenti ilə də müzakirə apardığını qeyd edib. S. Çakrabarti əlavə edib ki, EBRD ABB-nin səhmdarı ola bilər. Bunun üçün bankın korporativ idarəetməsində islahatlar aparılmalıdır: **"Biz azərbaycanlı tərəfdaşlarımıza bildirdik ki, texniki dəstəyə hazırıq, lakin səhm alışı üçün çox tezdir, biz hadisələrin hansı məcrada inkişaf edəcəyini görməliyik".**

İki gün əvvəl isə EBRD-nin baş ofisindən "Trend"ə bildirilib ki, bank Beynəlxalq Bankda dövlət payının bir hissəsini almaq üçün ölkə hökuməti ilə danışıqları davam etdirir: **"Qeyd etmək lazımdır ki, bu kifayət qədər iddialı layihədir və nəzərdən keçirilməsi, təsdiqlənməsi və reallaşdırılması müəyyən vaxt tələb edir".**

Göründüyü kimi, Azərbaycan hökuməti Beynəlxalq Bankın özəlləşdirilməsi prosesinə EBRD kimi nüfuzlu maliyyə qurumlarını cəlb etməyə çalışır. London Ali Məhkəməsinin qərarı bu prosesə necə təsir göstərəcək: restrukturizasiya və özəlləşmə prosesi dayana bilərmi? Bu vəziyyət nüfuzlu maliyyə qurumlarının Beynəlxalq Banka marağını azaldacaqmı?

**Suallara cavab verən iqtisadçı-ekspert Rəşad Həsənovun fikrincə, iki kreditorun iddiası əsasında çıxarılan məhkəmə qərarı Beynəlxalq Bankın restrukturizasiya prosesinin qarşısını ala bilməyəcək:** "Əvvəla, qərar ilkin instansiyada qəbul olunub. Azərbaycan hökumətinin real imkanı var ki, digər mərhələlərdə prosesin qarşısını alsın. Düşünürəm ki, bu imkandan yararlanılacaq da. İkincisi isə o qurumlara olan borcun məbləği elə də böyük deyil - 600 milyon dollar ətrafındadır. İstənilən zaman Azərbaycan hökuməti bu məbləği ödəyə bilər. Yəni ən pis halda bunu Dövlət Neft Fondunun, yaxud dövlət büdcəsinin hesabına ödəmək mümkündür. Yəni bu iddialar və qərar restrukturizasiya prosesini əngəlləyə bilməyəcək, bu proses artıq başa çatmaq üzrədir. Dövlət büdcəsindən də bu il üçün ödənilməli olan məbləğ nəzərdə tutulub - 400 milyon manatdan artıq vəsaitdir. Bu qərar, sadəcə, vaxt itkisinə səbəb ola bilər".

**R.Həsənovun sözlərinə görə, EBRD Beynəlxalq Bankın restrukturizasiya prosesini yaxından izləyir:** "Prosesin xeyli çətinliklərlə getdiyini də bank bilməmiş deyil. Digər tərəfdən, bu prosesdə qeyd olunan məhkəmə qərarından daha ciddi çətinliklər olub, lakin hamısı aşılıb. Bu baxımdan, bu hadisə Avropa Bankının Beynəlxalq Bankın özəlləşməsi prosesində iştirakını ciddi etkiləyə bilməyəcək. Azərbaycan hökuməti bank sektorunda şəffaflıq və sağlam rəqabət mühitinin formalaşmasını istəyirsə, Avropa Yenidənqurma və İnkişaf Bankından əlavə, digər beynəlxalq qurumların da özəlləşmədə iştirakına şərait yaratmalıdır. Belə bir iştirakçılıq olmayacaqsa, bu, sırf London Məhkəməsinin qərarından irəli gəlməyəcək. Bu, daha çox Azərbaycanın bank sektorundakı qeyri-şəffaflıqdan, həmçinin Beynəlxalq Bankın müştərisi olan dövlət qurumlarının mövqeyindən irəli gələn bir situasiya olacaq".

❑ **Dünya SAKİT,**
❑ **"Yeni Müsavat"**

# Bağça müəllimləri məcburi tibbi müayinədən keçəcək, bəs digərləri...

## Nəvəsini qəyyumluğa götürən baba problemlə üzləşib

### Nazirlik məsələyə aydınlıq gətirdi...

**Bakının Qaraçuxur qəsəbəsi, E.Bəkirli küçəsi, ev 47 A ünvanında yaşayan Qafarov Tofiq Mabutoviç redaksiyamıza gələrək şikayətlənib. O qeyd edib ki, körpə vaxtından valideynlərsiz qalan nəvəsinin qəyyumu olsa da, bununla bağlı müavinətini ala bilmir:**

"Nəvəm Külmanova Gülsüm Firudin qızı 2002-ci ilin may ayının 6-da anadan olub. 4 gün sonra anası dünyasını dəyişdi. Onun vəfatından əvvəl isə əri Külmanov Firudun həm onu, həm də övladını tərk edib, indiyədək onunla maraqlanmayıb. İndiyədək nəvəm mənim və nənəsi Qafarova Nailə Rzaəli qızının himayəsində yaşayıb. 2016-cı ildə Suraxanı İcra Hakimiyyətinə müraciət edərək nəvəmin üzərində himayəçi təyin edilməsini xahiş etmişəm. Bununla bağlı İcra Hakimiyyəti yanında Qəyyumluq və Himayə Komissiyası 2016-cı ildə iclas keçirib. Toplanan materiallar araşdırılaraq mənim əxlaqi və şəxsi keyfiyyətlərim, himayəçilik vəzifələrini yerinə yetirmək qabiliyyətim, himayə ehtiyacı olan şəxslə mövcud qohumluq münasibətlərim nəzərə alınaraq, nəvəm üzərində himayəçi təyin edilmişəm. Qəyyumluqla bağlı məvacib almaq üçün bütün rəsmi sənədləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərmişəm. Lakin bu günədək nəticə yoxdur. Aidiyyəti orqanlardan xahiş edirəm ki, bu məsələdə mənə yardımçı olsunlar".

**Nazirlik məsələyə bu cür aydınlıq gətirdi:** "Qafarov Tofiq Mabudoviçin müraciəti ilə bağlı bildiririk ki, nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun Suraxanı rayon şöbəsi tərəfindən ailə başçısını itirməyə görə nəvəsi Külmanov Gülsüm Firudin qızı üçün atası Külmanov Firudin Əlisəfa oğluna 61 manat məbləğində sosial müavinət ödənilir. Bundan başqa, həyat yoldaşı Qafarova Nailə Rzaəli qızı Fondun Nizami rayon şöbəsindən 179.36 manat məbləğində yaşa görə əmək pensiyası alır. Qafarov Tofiq özü isə 47 manat məbləğində III qrup əlilliyə görə sosial müavinət alır. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 4.0.1.9-cu maddəsinə əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət təyin edilməsi nəzərdə tutulub. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən qəyyumluq 14 yaşınadək, himayəçilik isə 14 yaşından 18 yaşınadək olan uşaqlara müəyyən olunur. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikası Qanununun 7.0.9-cu maddəsinə əsasən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət qəyyum (himayəçi) təyin edilən şəxslərin "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ünvanlı dövlət sosial yardımı almaq hüququ olduqda təyin edilir.

T.M.Qafarov aztəminatlı ailə olaraq ünvanlı dövlət sosial yardımı almaq üçün zəruri məlumatları elektron müraciət qaydasında təqdim edəcəyi təqdirdə ailəsinin bu yardımı almaq hüququna Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 fevral 2016-cı il tarixli 37 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalara əsasən Vahid Elektron Müraciət və Təyinat Alt Sistemində (VEMTAS-da) baxılacaq. T.Qafarovun ailəsinə aztəminatlı ailə kimi ünvanlı dövlət sosial yardımı təyin edildikdən sonra müvafiq sənədləri qeydiyyatda olduğu ərazi üzrə fondun rayon şöbəsinə müraciət etməklə qəyyumluğa görə sosial müavinət almaq hüququna qanunvericiliyə uyğun olaraq baxılacaq".

Nazirlikdən verilən məlumatda həmçinin bildirilib ki, vətəndaşın özü ilə əlaqə saxlanılıb qanunvericiliyin tələbləri ona izah olunub.

❑ XALİDƏ,
"Yeni Müsavat"

## Adil Qeybulla: "İctimai iaşə müəssisələrində çalışanlar da məcburi müayinədən keçməlidir"



**Nazirlər Kabineti "Məktəbəqədər təhsil sahəsində təhsilverənlərin tibbi müayinədən keçməsi Qaydası"nı təsdiq edib. Yeni qaydalara əsasən təhsilverənlərin sağlamlıq vəziyyətinin müəyyən edilməsi, xəstəliklərin, o cümlədən peşə xəstəliklərinin erkən aşkarlanması və qarşısının alınması, infeksion və parazitar xəstəliklərin yayılmasının qarşısının alınması məqsədi ilə tibbi müayinələr keçirilməlidir.**

Tibbi yoxlanışdan keçməkdən imtina edən şəxslər işə buraxılmayacaq. Həmçinin müayinədən keçmiş namizədlərdən vərəm, sifilis, süzənək, qurda yoluxma, kəskin və xroniki bağırsaq infeksiyaları, kəskin virus infeksiyaları, kəskin bakterial infeksiyalar, ruhi xəstəliklər, narkoloji xəstəliklər və ağır reşitmə halları aşkarlanan şəxslər işə götürülməyəcək. Müayinədən keçəcək şəxslərin siyahısı işə götürən şəxslər tərəfindən hər il dekabrın 1-dən gec olmayaraq hazırlanmalıdır və 3 gün ərzində həmin şəxslərə göndəriş verilməlidir. Təhsilverənlər 15 gün müddətinə müayinədən keçib nəticəni işəgötürən şəxsə təqdim etməlidirlər.

Qeyd edək ki, müəllimlərin tibbi müayinədən keçməsi sovet dövründə də vardı. Bir sıra təhsil ekspertləri müəllimlərin ildə bir dəfə deyil, həm işə götürülərkən, həm də sonrakı dövrlərdə tibbi müayinədən keçməsinin vacib olduğunu bildirirlər. Yalnız müəllimlər deyil, eyni zamanda yeyinti məhsulları, qida sənayesində, fabriklərdə, hotellərdə çalışanlar, bir sözlə, əhali ilə daha çox ünsiyyətdə olan insanlar da tez-tez tibbi müayinədən keçməli və çalışdıqları müəssisəyə sağlıq durumlarında hansısa problemin olmadığına dair həkim arayışı təqdim etməlidirlər. Ancaq təəssüflər olsun ki, buna hazırda elə də əhəmiyyət verilmir və kifayət qədər yoluxucu xəstəlik daşıyıcısı olan insanlar var ki, bu sahələrdə çalışırlar.

**Təsadüfi deyil ki, bu günlərdə Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi Rəfael Mehdiyev bir çox iaşə obyektlərində, restoranlarda, uşaq müəssisələrində açıq formalı vərəm xəstələrinin işlədiyini və onlara nəzarət edilmədiyini bildirərək həyəcan siqnalı çalıb:** "Sovet dövründə müəyyən obliqat qrupu var idi, həmin qrupa daxil olanlar mütəmadi müayinələrdən keçirilirdi, bu işə xüsusi nəzarət edilirdi. Lakin bu gün bu, unudulub. Vərəm xəstələrinə nəzarət itib".

Oxşar mövzu Milli Məclisin Səhiyyə komitəsinin iclasında da gündəmə gəlib. Komitənin iclasında Elmi-tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru Həqiqət Qədirova son bir neçə ildə vərəmə yoluxan uşaqların sayında artım olduğunu deyib. H.Qədirova vərəmli xəstələrin qeydiyyatdan kənarda qalmasında həm həkimləri, həm də xəstələrin ailələrini günahlandırıb. Həkimin sözlərinə görə, vərəm xəstələrinin müalicəsinin kor-koranə aparılması sonradan daha ciddi fəsadlar yaradır. Əgər ictimai iaşə obyektlərində, uşaq müəssisələrində açıq formalı vərəm xəstələri çalışırsa, vərəmə yoluxan uşaqların sayında gün keçdikcə artım olmasına təəccüblənməməliyik.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla yalnız bağça müəllimlərinin deyil, uşaqla təmasda olan bütün müəllimlərin mütəmadi olaraq tibbi müayinədən keçməsinin vacib olduğunu bildirdi:** "Nəinki uşaqlarla təmasda olanlar, ümumiyyətlə, bütün ictimai iaşə müəssisələrində çalışan, insanların kütləvi toplaşdığı yerlərlə təmasda olan şəxslərin hər biri məcburi olaraq tibbi müayinədən keçməlidir. Sovet dövründə də bu belə idi. İctimai iaşə obyektlərində, uşaq bağçasında, məktəbdə çalışan şəxslər tibbi müayinədən keçir, sağlamlıq haqqında arayış alırdılar. Yalnız bu arayış təqdim edildikdən sonra bu şəxslərə çalışmağa icazə verilirdi".

**A.Qeybulla müəllimlərin sağlıq durumlarını yoxlayan və onlara sağlamlıq haqqında arayış verən həkimin, tibb müəssisəsinin buna görə məsuliyyət daşıdığını dedi:** "Hansısa şəxsə sağlamlıq haqqında verilən arayışın altında konkret olaraq həkimin imzası, tibb müəssisəsinin möhürü olur. Əgər kiməsə saxta arayış verilərsə, buna görə həmin tibb müəssisəsi də, həkim də məsuliyyət daşıyır".

❑ Günel MANAFLI,
"Yeni Müsavat"

## Qalmaqallı dələduzluq işi uzanır

### Elza Qəhrəmanova: "O, təkcə məni deyil, 5 qadını aldadaraq pul alıb və geri qaytarmayıb"

**Adı dələduzluq işində hallanan Bakı sakini Nəzakət Hüseynova ilə bağlı qalmaqal səngimək bilmir. Bu dəfə redaksiyamıza zərərçəkmiş qismində olan Elza Qəhrəmanova müraciət edib. Digər zərərçəkmişlər kimi o da mətbuatda adının "sələmçi" kimi qeyd olunmasına etiraz edib.**

E.Qəhrəmanova qeyd edib ki, ona qarşı dələduzluq əməli törədən N.Hüseynova ilə uzun müddət qonşu olub:

"Biz onunla yaxından qonşu olsaq da, əsl simasını tanımamışam. 2014-cü ildə mənimlə telefon əlaqəsi saxlayaraq bildirdi ki, təcili 5 min manat pul lazımdır, ərinə maşın alır. Mənim də bir dükanım var idi, onu satmışdım. Nəzakət də buna görə bilirdi ki, məndə pul var. Beləliklə, onu yaxından tanıdığım üçün 4400 manat pul verdim. Bir neçə gündən sonra borcunu qaytarmadığı halda yenidən məndən pul istədi. Bu dəfə isə oğlunun təhsili haqqını bəhanə gətirdi. Buna görə avqust ayında ona 3700 manat verdim. Buna baxmayaraq, yenidən məndən pul istədi. Mən də bildirdim ki, qızımın təhsil haqqını ödəməliyəm, buna görə bankdan 5200 manat pul götürəcəm. Dedi ki, "sən götür mənə ver, təhsil haqqını özüm ödəyəcəm". Bu barədə sənədlər də var və hamısını istintaqa vermişik".

**Şikayətçi qeyd edib ki, Nəzakət Hüseynovaya üst-üstə 11100 manat borc versə də, bu günə qədər pulunu ala bilməyib:** "Sonradan bildik ki, qızımın təhsil haqqını da ödəməyib. Bu səbəbdən həm qızım, həm də mən ağır stress yaşadıq, infarkt keçirdim. Məlum olduğu kimi, Nəzakət Hüseynova təkcə məni deyil, 5 qadını müxtəlif yolla aldadaraq pul alıb və geri qaytarmayıb. Nəticədə şikayətlərimiz əsasında məhkəmə prosesləri başladıldı. Əvvəlcə barəsində "polisin nəzarəti altına vermə" qətimkan tədbiri seçilmişdi. N.Hüseynova hakimdən xahiş edərək 2 gün vaxt aldı ki, dəymiş ziyanı ödəyəcək. Bizi də əmin etdi ki, borclarını geri qaytaracaq. Lakin bizə heç bir borcunu ödəmədi, yanvarın 25-də Yasamal Rayon Məhkəməsində keçirilən prosesə də gəlmədi. Məhkəmə bu səbəbdən "polisin nəzarəti altına vermə" qətimkan tədbirinin dəyişdirilməsinə, onun barəsində axtarış elan olunmaqla həbs-qətimkan tədbirinin seçilməsinə qərar verdi. Həmçinin qeyd olundu ki, qərara əsasən, Hüseynova Nəzakət İmran qızı tutularaq Ədliyyə Nazirliyi Pentensiar Xidmətin Bakı İstintaq Təcridxanasına təhvil verilməlidir. Sonradan öyrəndik ki, N.Hüseynova qərar çıxarılandan iki saat sonra əməliyyat olunaraq, ödünü götürdüb. Bununla da prosesi uzatmağa çalışır".

Əlavə edək ki, qalmaqallı dələduzluq işində zərərçəkmiş qismində tanınan Dostxanım Cabbarova və Aynur Yusifova da redaksiyamıza gələrək, mətbuatda məsələ ilə bağlı yanlış məlumat dərc edildiyini, məhkəmə prosesinin düzgün işıqlandırılmadığını, barələrində deyilən "sələmçi" sözünün onlara qətiyyən aid olmadığını bildirmişdi. Şikayətçilər qeyd etmişdilər ki, N.Hüseynova Müşviqabadda məcburi köçkünlər üçün tikilən binadan ev almasına kömək edəcəyini deyərək, onların hər ikisindən 6 min manat alıb.

**Məsələ ilə bağlı qarşı tərəfin də mövqeyini dərc etməyə hazırıq.**

❑ Xalidə GƏRAY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 25 (6914) 2 fevral 2018




# Qəlbi ölümdən necə qorumalı?

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Əyyami-Fatimə (ə) günlərini yaşayırıq. Bu günlər - əziz Peyğəmbərimizin gözünün işığı Həzrət Fatimeyi-Zəhranın (s.ə) şəhadəti günlərinə aid bir dönəmdir.**

Xanım Zəhranın (s.ə) mübarək varlığı barədə bir çox rakurslardan danışmaq olar. Amma Həzrət Rəsuli-Əkrəmin (s) övladı və eyni zamanda ən parlaq davamçılarından olaraq, bir həyat yoldaşının, ananın ideal nümunəsi olaraq, İslam ümmətinin yolgöstərən parlaq nurlarından olaraq Xanım Zəhranın (s.ə) mübarək şəxsiyyəti barədə nə qədər danışılsa da, o Həzrətin dühasını əhatə etmək mümkün olmaz.

## Mübarək nümunəyə əmələn riayət etmək

Amma Xanımla (s.ə) bağlı əyyamı keçirməyin ən mühüm və ən bərəkətli yollarından biri o olardı ki, insan o məsələlərə nəzər salsın ki, Xanımın (s.ə) yaşayışını xarakterizə edir. İnsan o məsələlərə diqqət etsin ki, Xanımın (s.ə) həyat tərzini səciyyələndirsin. Və bunu etməkdə insanın əsas hədəfi o olmalıdır ki, özünün real vəziyyəti üçün nümunələr, ibrətlər götürsün. Gündəlik həyatında tətbiq etmək üçün dərslər çıxara bilsin. Əhəmiyyətlilik və mühümlülük buradadır. Sözsüz ki, insanın həyatının necəliyinə təsir etmə baxımından bu mübarək nümunəyə əmələn riayət etmək çox mühümdür.

Həzrət Fatimənin (s.ə) həyatına diqqət etdikdə, ilk öncə diqqəti çəkən - ali hədəflərin üstün tutulması amilidir. Və bu üstün tutma həm də onda özünü göstərir ki, həyatın hər bir səhnəsində ali hədəflər ən mərkəzi yerdədir. Xanım (s.ə) bütün həyatı boyu ardıcıl və davamlı olaraq hər bir şeyi məhz ali hədəflərə uyğun olaraq edirdi. İstər fərdi həyatında, istər ailə həyatında, istər ictimai həyatda, ana olaraq, övlad olaraq, həyat yoldaşı, dəyərlər təbliğatçısı, zülmü ifşa edən olaraq Həzrət Fatimə (s.ə) fəqət Allah Təalanın rizayətini, razılığını düşünürdü. Ali amallar ardınca idi. Və bu istiqamətdə hər zaman fədakarlığa hazır idi.

Mömin adına iddialı olan insan gündəlik həyatında məhz bu iki məsələni ibrət götürsə, böyük irəliləyiş etmiş olar: ali hədəflərin ardınca olmaqlıq və bu durumu qorumaq üçün fədakarlıq halətinin mövcudluğu.



**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**

Əgər insan Xanım Zəhranın (s.ə) o yüksək amallar ardınca olması mövzusuna diqqət yetirsə və bu amalları özü üçün qəbul etsə, bu amallara doğru istiqamətləndirsə, həyatını - Əyyami-Fatimədən götürdüyü ən böyük töhfə olar.

## Həzrət Zəhranın (s.ə) məqamını hədislərdən tanıyaq

Təbərrük üçün Həzrət Zəhraya (s.ə) aid mübarək hədislərə nəzər salaq. Həzrət Zəhranın (s.ə) müqəddəs varlığını bu hədislərdən müəyyən qədər tanımaq olar.

**Həzrət Peyğəmbər (s) buyurur:** "Qızım ona görə Fatimə (s.ə) adlandırılmışdır ki, Allah Təala onu sevənləri oddan qorumuşdur".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Hər kim qızım Fatiməni (s.ə) sevər, behiştdə mənimlə olar. Hər kim ona düşmənçilik edər, atəşdə olar".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Şübhəsiz ki, Fatimə (s.ə) - insan cilində xəlq olmuş huridir".

**İmam Kazım (ə) buyurur:** "O evdə ki, Muhəmməd, ya Əhməd, ya Əli, ya Həsən, ya Hüseyn, ya Cəfər, ya Talib, ya Abdullah, qızlar içərindən Fatimə (adını daşıyan) olarsa, yoxsulluq (ora) daxil olmaz".

**İmam Sadiq (ə) buyurur:** "Fatimə (s.ə) əvvəldən axırıncıya qədər olan dünya qadınlarının sərvəridir".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Fatimə (s.ə) - bədənimin bir parçası, gözümün nuru, qəlbimin meyvəsidir".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Şübhəsiz ki, Allah Fatimənin (s.ə) qəzəbi ilə qəzəblənir, razılığı ilə razı olur".

**Həzrət Peğəmbər (s) buyurur:** "Nifrin olsun, nifrin olsun o kəsə ki, məndən sonra qızım Fatiməyə (s.ə) zülm edər, haqqını qəsb edər və onu öldürər".

**İmam Baqir (ə) buyurur:** "Allah Təala, Fatimənin (s.ə) təsbihi kimi üstün bir ibadətlə həmd və sitayiş olmamışdır".

**Həzrət Əli (ə) buyurur:** "O ikisi (Həsən (ə) və Hüseyn (ə)) - Muhəmməd (s) üçün başda olan iki göz kimidirlər. Mən (Muhəmməd (s) üçün) bədən üçün olan əl kimiyəm. Fatimə (s.ə) - bədən üçün olan qəlb kimidir".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Hər kim Fatiməni (s.ə) ziyarət edər, ona bənzəyir ki, məni ziyarət etmişdir".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Mən - günəşəm, Əli (ə) - Aydır, Fatimə (s.ə) - Zöhrə ulduzudur, Həsən (ə) və Hüseyn (ə) isə iki nur saçan ulduzdur".

**Həzrət Peyğəmbər (s) buyurur:** "Ey Səlman! Həqiqətən Allah Fatimənin (s.ə) qəlb və əzasını sümüklərinə qədər tam iman və yəqinliklə xəlq etmişdir".

**İmam Kazım (ə) buyurur:** "Fatimə (s.ə) çox düz danışan xanım idi ki, onu şəhid etdilər".

## Cismin və ruhun 6 halı

Yüksək amallar yoluna çıxmaq üçün insana zəruri olan cəhətlərə diqqət yetirək. Bunlarla bağlı mübarək dinimizin konkret düsturları var. İlk növbədə, insanın ruhi-psixoloji durumuna aid olan tövsiyələrə diqqət edək. Bu mövzuda Həzrət Əlidən (ə) aşağıdakı məzmunda hədis nəql edilir: "İnsanın bədəninin 6 halı vardır: sağlamlıq, xəstəlik, ölüm, həyat, yuxu və oyaqlıq. İnsanın canı da 6 halətə malikdir: canın həyatı - elmdir, ölümü - cəhalətdir; xəstəliyi - şəkdir (tərəddüddə olmaqdır), sağlamlığı - yəqindir (mütməinlikdir); yuxusu - qəflətdir və oyaqlığı isə hifz və müraqibətdir".

Gördüyümüz kimi, Əmirəlmöminin (ə) bəlağətilə cismimizlə mənəvi vəziyyətimiz arasında dəqiqi paralellər bizlərə çatdırılır. Necə bədənin halları müxtəlifdir, necə bədən ölü və diri, xəstə və sağlam, yuxulu və oyaq kimi vəziyyətlərdə ola bilirsə, o cür də insanın ruhu bu hallara malikdir. Bu 6 halın hər birinin səciyyəvi xüsusiyyətləri də təqdim olunur. Bu xüsusiyyətlərə diqqət olunmalıdır.

İlk olaraq, təbii ki, həyatverici xüsusiyyətə diqqət edək. Canın həyatverici amili kimi burada elm təqdim edilir. Bizim canımızın, ruhumuzun, bizim mənəvi tərkibimizin həyatiliyini mübarək dinimiz elmdə, tanımada, bilikdə görür. Nə qədər insanın elmi çoxdur, nə qədər bilgisi çoxdur, tanıması çoxdursa, o qədər həyatı çoxdur. Deməli, birinci önəmli məsələ budur ki, canımızın həyatı - elmdir. Elmliyimiz nə qədər yüksəkdirsə, həyatiliyimiz də bir o qədər çoxdur.

Bunun əksi olaraq, canımızın ölümü cəhalətlə əlaqələndirilir. Nadanlıq, savadsızlıq, cahillik - ruhun ölümü deməkdir. Əfsuslar olsun ki, belə bir Əlisi (ə) olan toplumda cəhalət ayaq açıb yeriyir. Bir din ki, yaşaması elmli olmaqla şərtləndirir, onun ardıcılları əməldə, yaşayışda bu tövsiyələri özünə rəhbər tutmur. Amma Əli (ə) məntiqilə yaşayan bir müsəlman həyata can atırsa, sözsüz, bu, o deməkdir ki, elmini yüksəltməlidir. Və ölümdən qurtulmaq istəyirsə, bu, o deməkdir ki, cəhalətdən can qurtarmalıdır, nadanlığı özündən uzaq etməlidir.

## Qəlbin ölümü və diriliyi

Qeyd etdiyimiz kimi, ruhun ölüm və həyat vəziyyətləri var və onun həyatı elmlə səciyyələnirsə, ölümü cahilik, nadanlıqla müəyyənləşdirilir. Canın xəstəliyinə gəldikdə isə bunun meyarı şəkk-şübhəli durumdur. Daima tərəddüddə olan insanın ruhiyyəsi xəstədir. Şəkk və tərəddüd əslində ən böyük mərəzdir. Ruhu şəkk virusuna "yoluxmuş" insan salamat işlər görə bilmir.

Burada şöhbət məchul üzərində olan tərəddüddən getmir. İnsan bir məsələ üzərində düşünüb-daşınır, ölçüb-biçir - bu ayrı. Söhbət ondan gedir ki, vəzifəsinin aşkar olması müqabilində, görməli olduğu işin necəliyinə və nəcürlüyünədək ona əslində məlum olduğu halda, özünü çaşdırır, şəkk-şübhəyə salır.

Bunun əksi - yəqindir. Yəqinlik, mütməinlik - qəlbin salamatlığına dəlalət edən halətlərdəndir. Qəlbimizdə yəqinlik varsa, canımızın salimliyindən danışmaq olar. Yersiz şəklərə düşmürüksə, təkliflərimizi bildiyimiz halda arxayın irəli gedirik-sə, deməli ruhumuz salamatdır.

## Vücudi oyaqlıq

Mübarək hədisdə daha iki nöqtəyə işarə edilir ki, bunlar yuxu və oyaqlıq ilə əlaqədardır. Beləcə, qəlbin yuxusu - qəflətdə olmaqdır. Qəflət - insanın mənəvi durumunun yuxululuğudur. Ruhun oyanışı isə qorunma və müraqibətə bağlıdır. İnsan nə qədər qorunar, müraqibət edərsə, etdiklərinin fərqinə nə qədər vararsa - bir o qədər oyaqdır. İnsan nə qədər özünə, öz hərəkətlərinə diqqət edərsə, hər bir işinin hesab-kitabını aparарsa, bir o qədər oyaqdır. İnsanın hərəkət və sözləri nə qədər onun əqlinin məhsuludursa, əməlləri nə dərəcədə onun iradəvi durumunu əks etdirirsə, bir o qədər demək olar ki, bu insan öz ruhunun oyanışını təmin edir. Bunun əksi isə qəflətdir ki, insan belə durumda olanda, əslində vücudi yuxuya qərq olmuş olur.

Uca Allahdan duamız budur ki, bizlərin ruhunu elmlə həyatiləşdirsin, yəqinlə salamat etsin və qorunma, müraqibətlə oyaq qərar versin. Allah Təala cəmi insanları cahillikdən xilas etsin ki, vücudi ölüm olmasın. Şəkk-şübhədən uzaq etsin ki, qəlbi mərəzlikdən qorusun. Qəflətdən uzaq etsin ki, yuxuluğa tutulmasın.

##Ariflər nəyi görürlər?

Allah Təala qismət etsin ki, bəhrə apara bilək bu bəhslərdən. Əmələn tətbiq edə bilək bu məsələlərdə olan hikmətləri. Bunları sadəcə gözəl sözlər kimi deyil, həyatda tətbiq etmək üçün əməli düstur kim qəbul edək.

**Qəlbin ölməsi, ruhun məhvi bir çox insanı göz görərkən haqlamasına baxmayaraq, çox az adamı narahat edir. Fiziki ölüm əksər insanların fikrini-zikrini məşğul edir. Bu ölümü uzaqlaşdırmaq üçün əllərindən gələni edirlər. Amma mənəvi ölümləri ilə qətiyyən qayğılanmırlar. Halbuki ruhun ölümü - həqiqi ölümdür, fiziki ölüm isə bir həyatdan digərinə keçiddir. Odur ki, ariflər mənəvi ölümü həqiqi faciə sayırlar. Bu barədə Həzrət Əlidən (ə) nəql edilən hədisdə bildirilir:** "Mərifət sahibləri dünya əhlinə baxıb görərlər ki, bədənlərinin ölümünü böyük sayırlar, həddən çox əhəmiyyət verirlər. Və onlar (ariflər) isə qəlblərinin ölümünü daha böyük və daha ciddi hesab edirlər".

Ariflər dünyanı ötəri, keçici bir şey sayarlar. Bilərlər ki, bir gün bura ilə vidalaşmaq - qaçılmazdır. Geci-tezi var, amma heç kəs bu dünyanı tutub qala bilməyib. Amma mənəvi baxımdan ölən insan, həqiqi ölümlə üzləşmişdir. Qəlbin məhvi - əbədi məhv deməkdir.

İnsanın canı, qəlbi, ruhiyyəsi məhv olsa, əbədi olaraq ölümə məhkum olur.

Əgər dünya əhli bədənin ölümünə ki, zatən müvəqqəti bir kateqoriyadan söhbət gedir, onsuz da aradan gedəcək - bu qədər böyük əhəmiyyət verir, bunun əksi olaraq, ariflər mənəvi ölümün qayğısındadırlar. Düşünən insan üçün belə vəziyyətin alternativsizliyi və bunun əksi olan fiziki ölümü mənəvi ölümdən üstün tutmağın absurdluğu göz önündədir. Çünki, mənəvi ölümdən danışıldıqda müqayisəolunmaz dərəcədə böyük itkidən söhbət gedir.

Diqqət etsək, görərik ki, Məsumların (ə) bütün həyatı bu həqiqətlərin təsdiqinə həsr edilib. Bütün səylərinin hədəfi bu olub ki, qəlblərinin diriliyini saxlasınlar. Qəlblərinin oyaqlığını, salamatlığını saxlasınlar. Və bu baxımdan hər zaman qəlbin salamatlığının, diriliyinin əhəmiyyətinə varıblar. Bu nümunəyə diqqət etsək, qəlbin diriliyinə fövqəl əhəmiyyət verərik. Bütün işlərimizi bu hədəfə təslim edərik. İnsan bir əzasının ağrımasından necə narahat olursa, qəlbinə yara vurulmasından da bundan az olmayaraq narahat olmalıdır. Müvəqqəti cisminin yaralanmasından əziyyət çəkdiyi kimi, əbədi ruhunun yaralanmasından da gərək əziyyət çəksin. Yalnız bu zaman yaranışının fəlsəfəsnə uyğun həyat sürmüş olar.

Hər şeyə çarə qılmaq olar, amma insan bu dünyada qəlbi xəstə yaşayıb, qəlbi ölmüş vəziyyətdə də bu dünyadan getsə, nicat tapa bilməyəcəkdir. Və ən başlıcası - bütün bunları mücərrəd mövzular kimi qəbul etməmək gərəkdir. Əmələn realizə olunmalı bir kateqoriya kimi gündəlik həyatda tətbiq etsin gərək insan bunları.

**Uca Allahdan duamız budur ki, bizlərin də bu məsələlərə diqqət etməyimizi nəsib etsin. Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 25 (6914) 2 fevral 2018



## Çində qoyun-quzu hesabı sosial şəbəkəni qarışdırdı

**Çinin Siçuan bölgəsində 5-ci sinif uşaqları üçün nəzərdə tutulan məsələ ciddi müzakirələrə səbəb olub. Böyüklər də bu məsələni həll edə bilmədikləri üçün sosial şəbəkələrdə məsələ ilə bağlı hərə öz versiyasını səbəbləndirib. Uşaqlardan soruşulub ki, əgər gəmidə 26 qoyun və 10 keçi varsa, kapitanın neçə yaşı var. Çin KİV-ləri yazıblar ki, uşaqlar hazırcavablıq və kreativlik nümayiş etdirərək, fərqli cavablar veriblər. Məsələn, kimsə yazıb ki, kapitanın yaşı 18-dən az olmamalıdır. Bir başqası isə kapitanın 36 yaşı olduğunu və narsist olduğunu qeyd edib. Onun məntiqinə görə, kapitan məhz öz yaşına uyğun sayda heyvan saxlayırmış.**

Çin mediası düzgün cavabı yayımlasa da, insanlar sosial şəbəkədə fikir mübadiləsini davam etdiriblər. Amma versiya irəli sürənlərin də böyük əksəriyyəti özünü və başqalarını çaşdırmaqdan başqa bir iş görməyib. Məsələni hazırlayan məktəb isə açıqlayıb ki, ümumiyyətlə, bu sualın cavabı yoxdur. Məqsəd, sadəcə, uşaqların tənqidi düşüncə, analiz qabiliyyətinin müəyyənləşdirilməsi olub. Bu açıqlama ilə tanış olanlar isə iddia ediblər ki, müvafiq testlər təkcə Çinə yox, eləcə də digər ölkələrə, məsələn, Amerikaya lazımdır.

## Pulları göyə uçdu, insanlar yığıb qaytardı

**Çinin Şuanyaşan şəhərində insanlar göydə uçan pulları yaxalayaraq onu sahibinə qaytarıblar. Bu barədə "South China Morning Post" nəşri xəbər verir. İnsanlar küçədən 100 yuanlıq kupyuralardan çoxlu sayda toplayıblar ki, bu da ümumən 4,8 min yuan təşkil edib. Baş vermiş hadisə ilə bağlı sahibkar Çzyan Quntyu yaxınlıqda yerləşən bankın şöbəsinə məlumat verib. Onun təşəbbüsü ilə müşahidə kamerasının görüntüləri təhlil edilib.**



Video göstərib ki, bankın ziyarətçilərindən biri əlində 15 min yuanla ordan çıxıb, onu ciblərinə yerləşdirmək istəyəndə isə bir qismi yerə tökülüb və o, bunu fərq etməyib. Bank bu müştərinin kimliyini müəyyənləşdirib və onunla əlaqə saxlayıb. Məlum olub ki, yoldan keçənlər yerə səpələnən bütün pulları yığmağa nail olublar.

Külək daim Çin sakinlərinin pulunu əlindən aparır. 2016-cı ilin noyabr ayında isə Yançen şəhərindəki bir bankda istifadəçinin əlindən 30 min yuan uçmuşdu. Bir ay sonra isə Dalyan şəhərində külək 25 min yuanı havaya sovurdu. Hər iki hadisədə yoldan keçənlər itirilmiş pulu yığmağa yardım etdilər.

## Oğru pişik sevgililərin arasını vurdu



**Yeni Zelandiyadakı bir pişik qonşunun paltarını evə gətirməklə bir cütlüyün dalaşmasına səbəb olub. Bu barədə "New Zeland Herald Focus" nəşri məlumat verib. Oklenddən olan Ed Vilyamsın yatağında yad qadın alt paltarları görən gənc qız onunla mübahisə edib. Ed bu əşyaların kimə aid olduğunu izah edə bilməyib və sevgilisi də ondan inciyib. Yeni zelandiyalı öz sadiqliyini sonradan, pişiyi sayəsində sübut edə bilib. Məlum olub ki, Mo ləqəbli pişiyi qonşulardan geyim əşyası oğurlayır. "Bu hadisədən iki həftə sonra pişiyimizin dişində bir köynəklə yolu keçdiyini görəndə anladıq ki, bütün bu hoqqanın səbəbi odur".**

Vilyams bildirib ki, daha öncə heyvanda hər hansı kriminal əlamətlər hiss etməyib. Çünki heyvan oğurluğu gecə saatlarında edirdi. Özü də onun gətirdikləri ancaq qadınlara aid olmurdu. Yeni zelandiyalının sözlərinə görə, bir həftə ərzində pişik 30-40 əşya oğurlayır: qadın və kişi alt paltarları, köynək və corablar.

Kişi müntəzəm olaraq bu geyimləri qonşulara geri qaytarır. Onlar isə heyvanın bu hərəkətini şıltaqlıq kimi qəbul edərək, bundan uzaqgedən nəticələr çıxarmırlar. 2016-cı ilin iyun ayında buna bənzər hadisə Avstraliyada baş vermişdi. Nindza ləqəbli sarı pişik qonşulardan o qədər çox şey oğurlamışdı ki, sahibəsi oğurlanan əşyaları sahiblərinə qaytarmaq üçün facebookda xüsusi səhifə açmışdı.




**QOÇ** - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, həmçinin daxili orqanlarınıza ciddi fikir verməlisiniz.

**BUĞA** - Havaların şıltaqlığını nəzərə alıb istirahətə daha çox üstünlük verin. Əgər qonaqlığa dəvət alsanız, məmnuniyyətlə qəbul edin. Ümumi zəifliyinizə görə qidanıza da yaxşıca fikir verməlisiniz.

**ƏKİZLƏR** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqdan sevindirici xəbər alasınız. Hər halda, ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə maksimum ehtiyatlı olmalısınız.

**XƏRÇƏNG** - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Qlobal məsələlərin həllində təşəbbüskarlığı da əldən verməyin.

**ŞİR** - Bu gün ümumi əhvalınızda xoş məqamlar çox olacaq. Ələlxüsus da saat 15-dən sonra bütün cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı isə ailə-sevgi münasibətlərinə həsr edin.

**QIZ** - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Vaxt tapıb yaxın dostlarınıza baş çəkin.

**TƏRƏZİ** - Ümumi kosmik mənzərə sizdə səhhətlə bağlı problem yarada bilər. Bu səbəbdən də qayğınıza qalmağa çalışın. Ayaq nahiyənizə xüsusi diqqət ayırın. Qalan sahələrdə normallıq olacaq.

**ƏQRƏB** - Kifayət qədər uğurlu gündür. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Uzaq yola çıxmayın.

**OXATAN** - İntiqam hissi, əsəbi situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Buna görə də yalnız özünüzə aid işlərlə məşğul olun.

**OĞLAQ** - Saat 14-ə qədər neytrallıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir.

**SUTÖKƏN** - Bütün göstəricilər səfərlərə çıxmaqdan məmnunluq duyacağınızı xəbər verir. Elə isə vaxtı fövtə verməyin. Bu gün fəaliyyətlə bağlı işlər üçün o qədər də uğurlu vaxt deyil.

**BALIQLAR** - Şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin. Nahardan sonra ağır fiziki işlərdən, nabələd adamlarla danışıqdan yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Ölkənin məxfi sənədləri şkafla birgə satıldı



**Avstraliyalı Kanberre şəhərindəki mebel mağazasından içi məxfi sənədlərlə dolu iki ədəd şkaf alıb. Şkaf alıcıya endirimlə çatıb. Çünki onlar qapalı idi və heç kim açarları tapa bilmirdi. Avstraliyalı şkafı satın alandan sonra qıfılı drelin köməyi ilə söküb. Mebel Avstraliya Nazirlər Kabinetinin sənədləri ilə dolu olub. Demək olar ki, bütün sənədlərin üzərində məxfiliyi ilə bağlı xəbərdarlıqlar yer alıb və xüsusi qeydlər olub. Bu sənədlərin arasında Avstraliyanın kontrterroristik əməliyyatlarla bağlı planlar da yer alıb. Bundan başqa, xüsusi xidmət orqanlarının hesabatları, hərbi əməliyyatlar da sənədlərdə öz əksini tapıb.**

Şkafın sahibi isə bu sənədləri birbaşa mediaya ötürüb. Bu da öz növbəsində ciddi qalmaqala səbəb olub. Media bundan sensasiya düzəldərək, iki eks baş naziri, eləcə də parlament üzvünü qaralayıb. Avstraliya hakimiyyəti isə içi məxfi sənədlərlə dolu olan sözügedən şkafın necə mebel mağazasına düşə biləcəyini araşdırmağa başlayıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100